# 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR

**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

17 yanvar 2026-cı il №02 (9157) www.muallim.edu.az muallim@media.edu.az



# AZƏRBAYCAN TARİXİNİN QƏHRƏMANLIQ SƏHİFƏSİ





**Əziz həmvətənlərim, xanımlar və cənablar!**

**Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm.**

*Ümummilli Lider Heydər Əliyevin 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqdakı çıxışından (21 yanvar 1990-cı il)*

*İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti*

**20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi. O gündən keçən müddət ərzində Azərbaycan demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu. Sovet İttifaqının dağılmasından sonra biz çox ağır və çətin vəziyyətdə idik, həm iqtisadi cəhətdən, eyni zamanda, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində torpaqlarımız işğal altına düşmüşdü. Buna baxmayaraq, biz bütün çətin sınaqlardan çıxa bildik. Bu gün ölkəmiz dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan sübut etdi ki, xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi uğurla inkişaf edir.**

**20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz ruhu daim yaşayacaq, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Mən o dəhşətli gündə yaxınlarını itirmiş bütün insanlara bir daha başsağlığı verirəm. Şəhidlərimizin ruhu əbədi yaşayacaq və yaşamalıdır.**

## Fakt və rəqəmlər

Qanlı Yanvar hadisələri zamanı Bakı şəhərində 131 nəfər həlak olub, ümumi nəticəyə görə isə bu hadisələrdə yaralananların sayı 800, həbs olunanların və itkin düşənlərin sayı isə 1000 nəfərdən çox olub. Eyni zamanda 200 ev və mənzil talan edilərək yandırılıb, 80 avtomaşın, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edilib.

## Faciə qurbanları məktəblilərimiz





**“Mən atamla getmək, insanları və bayrağı görmək istəyirəm”**










# Faciə qurbanları MƏKTƏBLİLƏRİMİZ

**Azərbaycan xalqının tarixində elə hadisələr var ki, onun üzərindən illər keçsə də, unudulmayıb, əksinə qan yaddaşımızda əbədi həkk olunub. Məhz 20 Yanvar 1990-cı il xalqımızın tarixində təkcə faciə deyil, həm də istiqlal mücadiləsinin qələbəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Sovet imperiyasının əsarətində yaşamağa məhkum olan xalqımızın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir 20 Yanvar. 36 ildir ki, xalqımız bu günü, Vətənimizin azadlığı və suverenliyi uğrunda qurban getmiş mərd oğul və qızlarının xatirəsini dərin hörmət və ehtiramla yad etmək üçün Şəhidlər Xiyabanına axın edirlər.**

**Həmin Qanlı Yanvar gecəsi azadlığımız, müstəqilliyimiz uğrunda canlarını qurban verən oğul və qızlarımız arasında şagirdlərimiz də oldu. Larisa Məmmədova , İlqar İbrahimov, Nəriman Hüseynov və Vera Bessantina. Onlar 20 Yanvar faciəsinin qurbanı olan məktəblilərimizdir. 1990-ci il yanvarın 19-na qədər həyat eşqi ilə dolu, qayğısız uşaqlıqları var idi... Həmin o faciə yaşanılan günə qədər öz doğma məktəblərinə sevə-sevə şagird kimi gedirdilər. Hər birinin xəyalları, arzuları, sevimli müəllimi və sinif yoldaşları var idi. Larisa Məmmədova Bakıdakı 132-134 nömrəli Təhsil Kompleksinin, İlqar İbrahimov 167 nömrəli tam orta məktəbin VII sinif şagirdləri idilər. 15 yaşlı Nəriman Hüseynov isə paytaxtdakı 42 nömrəli tam orta məktəbdə VIII sinifdə oxuyurdu. Həmin faciənin qurbanı olan daha bir məktəblimiz - Vera Bessantina 258 nömrəli tam orta məktəbin XI sinif şagirdi idi. Onların hər birinin yarımçıq qalan ömür hekayəsi insanı sarsıdaraq, dəhşətə gətirir.**

## “Mən atamla getmək, insanları və bayrağı görmək istəyirəm”



*On üç yaşlı körpə bala,*
*Yazıq anan necə dözsün*
*Bu kədərə, bu məlala?*
*Məzarının baş ucunda*
*kuklan da var.*
*Bu gün laylay çalmalıykən*
*sən kuklana,*
*Kuklan sənə laylay çalar.*
*Sən özün də kukla idin.*
*Bu dünyanın əvvəlini,*
*Axırını heç bilmədin.*
*Kim kuklaya güllə atar?*
*Atan oldu...*

Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadənin 20 Yanvarda öldürülən Larisa Məmmədovaya ithaf etdiyi “On üç yaşlı körpə bala” şeirində deyildiyi kimi, doğrudan da, bu dünyanın əvvəlini, axırını bilmədən, həmin günə qədər sevimli məktəbinə böyük həvəslə gedərək nə xəyallar quran bu balaca qızın öz şirin dünyası var idi. Gözəl bir ailəsi var idi Larisanın. Ailənin ilki idi. Ata-anası, balaca bacısı və qardaşı onu çox sevirdi. Qanı Yanvar gecəsindən 36 il keçsə də valideynlərinin ürəyindəki övlad yanğısı hər dəfəsində yenidən alovlanır. Anası Qalina xanım, atası Fərman Məmmədov üçün faciəni xatırlamaq həmin dəhşətli günü yenidən yaşamaq deməkdir.

Qalina xanım faciənin yaşandığı 20 Yanvardan danışarkən göz yaşlarını saxlaya bilmir: “Həmin gecə həyatımızı dəyişdi. Larisa hər zaman mənə uşağa baxmaqda, ev işlərində kömək edərdi. Həddindən artıq diqqətcil, həyatsevər və qayğıkeş idi. Həyat yoldaşım Fərman Məmmədov 2 saylı avtobazada kortej rəisi işləyirdi. Həmin gün işə gedirdi. Larisa da ona aldığımız yeni paltarlarını geyinərək atası ilə getmək istədiyini söylədi. Larisanı atası ilə getmək fikrindən nə qədər daşındırmağa çalışsam da o inadkarlıq edərək sonunda öz istədiyinə nail oldu. Mən atamla getmək, insanları və bayrağı görmək istəyirəm, - dedi. O gecə onu buraxmazdım, amma həmişə atasının yanında olmağa can atırdı, ona işə yemək aparır, avtobusuna minir, hətta onunla birlikdə mitinqlərə də gedirdi. Belə bir faciənin baş verəcəyini ağlıma belə gətirməzdim...

Yanvarın 19-dan 20-nə keçən gecə şəhərdə atəş səsləri eşidiləndə küçəyə çıxdım və çox narahat oldum. Evdə 4 aylıq Nərminə və 5 yaşlı Emin tək qalsa da, səhərə qədər bayırda onları gözlədim. Səhər Semaşko xəstəxanasından mənə zəng edib ərimin vəziyyətinin ağır olduğunu bildirdilər. Qonşularımla birlikdə dərhal ora getdim. Əsgərlər zavodun yanında Fərmanla Larisanın oturduqları avtobusu güllələbaran etmişdilər. Həyat yoldaşım Fərman ayağından yaralanmışdı. Larisam isə ürək nahiyəsindən güllə yarası alaraq, yerindəcə həlak olmuşdu”.

Larisanın anası Qalina Məmmədova xatirələrində bildirir ki, qızının yaşı az olmasına baxmayaraq, o, həyatda hər şey üçün tələsirdi, ömrünün ən gözəl dövründə sanki bu dünya ilə vidalaşacağını bilirdi.

Larisa Məmmədova bir şagird kimi də nümunəvi olub. Dərslərini yaxşı oxumaqla yanaşı, toxuculuq, tikiş dərnəklərinə gedib. Pianinoda ifa etməyi bacarırdı, eyni zamanda gözəl rəsmlər çəkirdi. O ərəfələrdə onun rəsmlərindən ibarət sərgisi keçirilməli idi.

Vaxtilə təhsil aldığı 132-134 nömrəli Təhsil Kompleksində artıq neçə illərdir ki, onun adını daşıyan dərnək fəaliyyət göstərir. Larisanın adını əbədiləşdirmək məqsədilə onunla bağlı yaradılmış guşədə isə uşaqlıq, ailə, məktəb fotoları yerləşdirilib. Təhsil müəssisəsinin şagirdləri mütəmadi olaraq guşəyə baş çəkir, Larisa ilə bağlı məlumatlarla yaxından tanış olurlar. Qızcığazın vətən sevgisi, qəhrəmanlıq hekayəsi, bu təhsil müəssisəsində oxuyan hər bir şagird üçün örnəkdir. Onunla bağlı “dəyirmi masa”lar təşkil edilir. Rəsmə xüsusi sevgisi olduğu üçün vaxtaşırı rəsm sərgiləri keçirilir.

“Təhsil müəssisəsinin rəhbərliyi, pedaqoji kollektivi və şagirdlərimiz öz sevimli şagirdini unutmur, xatirəsini hər zaman ehtiramla anır”, - deyir Larisanın bacısı Nərminə müəllim. Özü Larisanı valideynlərinin və qardaşının danışdıqlarından tanıyır. Bacısı həlak olanda o, 4 aylıq olub. Artıq neçə illərdir ki, bu təhsil kompleksində ibtidai sinif müəllimi kimi fəaliyyət göstərir. Hər dəfə ümumtəhsil müəssisəsinə daxil olanda Larisanın fotosu ilə üz-üzə gələn Nərminə müəllimə bacısından sanki doğmalıq, sevgi ötürülür. Kim bilir, yaşasaydı məsum baxışlı Larisa Məmmədova bacı və qardaşına gözəl bacı olmaqla yanaşı, istedadlı pianist və ya tanınmış rəssam ola bilərdi. Bütün arzuları yarımçıq qaldı...

Deyilənlərə görə Larisanın paytaxtımızda ən sevdiyi yerlərdən biri hazırda Şəhidlər Xiyabanının yerləşdiyi Dağüstü Park olub. Şəhərin ən hündür yerindən Bakını seyr etməyi xoşlayardı. Bəlkə də şəhidlik zirvəsinə yüksələn Larisanın alın yazısı idi ki, məhz o sevdiyi məkanda - burada uyumalı, ziyarətinə isə hər il çox sayda insan axışmalıdır.

## Onun son və əbədi mənzili bizim and yerimiz olan Şəhidlər xiyabanıdır



Vera Lvovna Bessantina Bakıdakı Arif Vəliyev adına 258 nömrəli tam orta məktəbin şagirdi olub. O zaman XI sinifdə təhsil alırdı. 23 nömrəli musiqi məktəbinin skripka sinfini bitirmişdi. Vera da düşmən gülləsinə tuş gələn şagirdlərimizdəndir. Ancaq ona dəyən güllə elə öz evində olub.

Veranın anası həmin günü xatırlayaraq deyirdi: “Yanvar ayının 19-da axşam həmişəkindən də bir az tez yatdıq. Yerimizə tez girməyin səbəbi bu idi ki, televiziya yayımı dayandırılmışdı, heç nəyə baxıb vaxtımızı keçirə bilmirdik. Yatıb rahatlanmaq istəyirdik. Sabah görüləsi işlərim çox idi. Gecə yarıdan keçəndən sonra tankların gurultusuna, güllələrin şaqqıltısına yuxudan ayıldıq. Bu nə səs idi? Kim idi güllə atan? Güllələri kimə atırdılar, niyə atırdılar? Niyə şəhərimizin dinc həyatını pozurdular? Biz İnşaatçılar prospektindəki “Olimp” mağazası yerləşən binanın beşinci mərtəbəsində yaşayırdıq. Bütün bu suallara cavab tapmaq üçün pəncərəyə yaxınlaşıb aşağı baxmaq istədim. Yuxudan ayılan Vera da küçədə nələr baş verdiyini öyrənmək üçün işığı yandırıb pəncərədən aşağı boylandı. Elə bu vaxt pəncərəmiz atəşə tutuldu. Şüşələr çilik-çilik olub yerə töküldü. Geri çəkilib döşəmənin üstünə atıldıq. Qızım Vera “ay ana”, deyib arxası üstə yerə yıxıldı. Veramı qan içində gördüm. İmperiya əsgərinin atdığı güllə onun qarın nahiyyəsindən dəymişdi. Vaxt itirmədən təcili yardıma zəng vuraraq həkim çağırdım. Vera hələ özündə idi, bizimlə danışırdı. Onu ehtiyatla təcili yardım maşınına yerləşdirdik. İlahi, doğma şəhərimizin küçələri nə gündə idi! Zirehli, tırtıllı texnikaların gurultusu, nəriltisi, avtomat və başqa silahlardan açılan atəş səsləri şəhərimizi başına götürmüşdü. Quduzlaşmış imperiya əsgərləri bir neçə yerdə maşınımızın qarşısını kəsdi”.

Əliyalın insanlara qarşı amansızlıq göstərən ordu nə qocaya, nə qadına, nə də uşaqlara rəhm edirdi. Və Vera da bu qəddarlığın qurbanı oldu. Təcili yardım maşını xəstəxanaya çatmamış yenidən atəşə tutuldu. Digər təcili yardım maşını ilə xəstəxanaya çatdırılsa da, artıq gec idi. Vera Bessantina güllə yarasından əbədi olaraq gözlərini yummuşdu.

Onun da son və əbədi mənzili bizim and yerimiz olan Şəhidlər xiyabanı oldu.

## Məktəb 13 yaşlı İlqarın adını fəxrlə, qürurla daşıyır



Bakıdakı 167 nömrəli tam orta məktəbin həyətində bir büst ucaldılıb. Və bu büst 20 Yanvar faciəsinin qurbanı, 13 yaşlı İlqar İbrahimovundur. Körpə canıyla qəhrəmanlıq simvoluna çevrilən İlqar məktəbin şagirdi olub. O, vaxtilə bu məktəbdə oxuyub. 36 il öncə yaşanmış həmin o müdhiş gecədə həlak olan İlqarın xatirəsinə ehtiram göstərən məktəbin şagirdləri büstün ətrafının təmizliyinə nəzarət edir, mütəmadi olaraq təzə-tər gül dəstələri qoyurlar.

1990-cı ilin 19-20 yanvarında, ayazlı-şaxtalı gecədə 13 yaşlı İlqar qonşuları Nazimin “Zaparojes” markalı maşını ilə dostları Zakir və Pərvizlə düşmən tanklarının önünə sinələrini sipər edən soydaşlarımıza ocaq qalayıb isinmək üçün odun aparırdı. Bu dəfə onlar tanklarla üzləşdilər. Maşınlarını saxlayıb qaçmağa başladılar. İlqar isə arxada qaldı. Düşmən tankı əvvəlcə onların maşınının üstünə çıxıb əzik-üzük etdi. Sonra da İlqara bir neçə atəş açaraq onu ölümcül yaraladı. İlqarı xəstəxanaya çatdırsalar da, onun həyatını xilas etmək mümkün olmadı. Düşmən gülləsi İlqarın həyatına son qoydu.

İlqarın oxuduğu 7 “a” sinfinin şagirdləri məktəbdə seçilirdi. Onun özü də məhz öndə gedən şagirdlərdən hesab olunurdu. İlqar tanıyanlarının yaddaşında yaraşıqlı, sakit təbiətli, qayğıkeş uşaq kimi qalıb. Başqa fənlərə nisbətən ədəbiyyatı daha çox sevərmiş . Poeziya vurğunu idi. Ən əsası isə xalqını, torpağını varlığı qədər sevən bir gənc idi. Bir çox uşaqlar kimi hobbisi marka, maşın şəkilləri toplamaq olub. Məktəbi bitirdikdən sonra hərbçi olmağı arzulayırdı. Arzuları yarımçıq qaldı...

İllər keçir, 167 nömrəli tam orta məktəbin şagirdləri məzun olaraq estafeti digərlərinə ötürürlər. 20 Yanvar şəhidi İlqar İbrahimovun adını daşıyan bu məktəbdə təhsil alan hər yeni şagird də bu adın bunun məsuliyyətini dərk etməklə yanaşı, həmçinin böyük qürur hissi keçirir.

## Ailənin 15 yaşlı yeganə oğlu Nəriman



Düşmən gülləsinə tuş gələn növbəti məktəblimiz Nəriman Vəli oğlu Hüseynovdur. O, Bakıdakı 42 nömrəli tam orta məktəbin VIII sinif şagirdi idi. Vəli kişinin 15 yaşına çatdırdığı ilki Nəriman ailənin yeganə oğlu idi. Nərimanın anası uzun illərdir ki, ağır xəstə olub. İki bacısına da Nəriman qulluq edirdi.

20 Yanvar günü atışma səsinə küçəyə çıxan Nəriman, Salyan kazarmasının yanında avtomat gülləsi ilə yaralanır. Məhəllə uşaqları onu xəstəxanaya aparırlar. Onlar xəstəxanaya çatanda hər yan zülmət imiş. Semaşko adına xəstəxananın işıqları söndürülübmüş. Səhər tezdən onun meyitini Semaşko adına xəstəxananın meyitxanasından tapıblar. Çox sayda güllə onun döş qəfəsində sağalmaz yaralar açmışdı.

Yeniyetməlik çağında olan Nərimanın həyatına beləcə son qoyuldu.

## Vətən sevgisi hər şeydən üstündür...

Bəli, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının hüzn və şərəf günüdür. Həmin gün Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil oldu. 20 Yanvar şəhidləri xalqımızın milli azadlığı, suverenliyi və gözəl həyatı üçün yol açdılar. Həmin yolu açanların sırasında 13 yaşlı Larisa və İlqar, 15 yaşlı Nəriman, 16 yaşlı Vera da oldu. Bu şəhidlik təsdiq edir ki, hər bir Azərbaycanlının qəlbində Vətən sevgisi hər şeydən üstündür... Və bu sevgi yaşa baxmır...

**Samirə KƏRİMOVA**



# Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı

## Prezident İlham Əliyevin yanvarın 13-də Ağdərə rayonuna rəsmi səfəri

- Prezident İlham Əliyev Ağdərə rayonunun Çapar kəndində görülmüş işlərlə tanış olub.
- Prezident İlham Əliyev Ağdərə rayonunda “Qozlukörpü” Su Elektrik Stansiyasının açılışında iştirak edib.
- Prezident İlham Əliyev Ağdərə rayonunun Heyvalı kəndində görülmüş işlərlə tanış olub.
- Prezident İlham Əliyev Ağdərənin Canyataq kəndində “Dəmirli” Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.
- Prezident İlham Əliyev Ağdərə rayonunun Çıldıran kəndində görülmüş işlərlə tanış olub.
- Prezident İlham Əliyev Ağdərə rayonunun Aşağı Oratağ kəndində görülmüş işlərlə tanış olub.
- Prezident İlham Əliyev Ağdərə şəhərinin Baş planı ilə tanış olub.
- Prezident İlham Əliyev Ağdərənin Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb.
- Prezident İlham Əliyev Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub.





**“Bütün bu kəndlərdə olmuşam: Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndləri. Evlər gözəl təmir olunub, bərpa edilib. Son iki il ərzində biz işğaldan azad edilmiş Ağdərə rayonunun bütün qəsəbələrində, kəndlərində monitorinq aparmışıq. Birinci mərhələdə bərpa olunan kəndləri müəyyən etmişik və artıq Ağdərə rayonunun doqquz kəndinə keçmiş köçkünlər qayıtmışlar.**

**Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı. Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. Azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdıblar və burada qürurla yaşayacaqlar, xoşbəxt yaşayacaqlar, rahat yaşayacaqlar. Əminəm ki, bundan sonra müharibə olmayacaq. Azərbaycan dövləti güclü dövlətdir.**

**Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Burada şərait yaradılıb - işıq, su, qaz, yollar, iş yerləri”.**






# Ucarda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan məktəb istifadəyə verilib



Yanvarın 9-da Ucar şəhər 2 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən 720 şagird yerlik yeni məktəb 3 mərtəbəli və 5 korpusludur.

Təhsil ocağının fənn kabinetləri və laboratoriyaları zəruri mebel və avadanlıqla, əyani vasitələrlə təchiz edilib. Şagird və müəllimlərin istifadəsinə verilən sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, kompüter, hərbi-hazırlıq, tibb, əmək təlimi otaqları, kitabxana, bufet və yeməkxana, akt və idman zalları və açıq idman meydançası tədrisin yüksək səviyyədə keçməsini təmin edəcək. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.





# Nazir Ukraynanın ölkəmizdəki səfiri ilə görüşüb

## Ukrayna ilə elm və təhsil sahəsində əməkdaşlıq müzakirə edilib



Yanvarın 16-da elm və təhsil naziri Emin Əmrullayev Ukraynanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Yuriy Husyev ilə görüşüb.

Görüş çərçivəsində Ukrayna ilə elm və təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

# Azərbaycan ilə İtaliya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclası keçirilib

## İclasda çıxış edən nazir müavini iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti barədə məlumat verib

Yanvarın 13-də Bakıda keçirilmiş Azərbaycan ilə İtaliya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclasında elm və təhsil nazirinin müavini Həsən Həsənli iştirak edib.

İclasda çıxış edən nazir müavini iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti barədə iştirakçıları məlumatlandırıb. Həsən Həsənli çıxışında İtaliya-Azərbaycan Universitetinin fəaliyyəti, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi, birgə təhsil layihələrinin dəstəklənməsi, eləcə də ümumi və ali təhsil müəssisələri arasında akademik əlaqələrin dərinləşdirilməsi istiqamətində görülən işlər barədə də məlumat verib.

Komissiyanın iclasında həmçinin iki ölkə arasında ticari-iqtisadi, sənaye, energetika, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, eləcə də mədəniyyət sahələrində əməkdaşlığın mövcud vəziyyəti və potensial əməkdaşlıq imkanları müzakirə olunub.

Sonra iclasın yekunlarına dair Protokol imzalanıb.



# Müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqəsində iştirak proseduru təkmilləşdirilir



Ölkə başçısının müvafiq Sərəncamı ilə “Ümumi təhsil haqqında” Azərbaycan Respublikası Qanununa edilən dəyişiklik nəticəsində müəllimlərin işə qəbulu üzrə müsabiqədə (MİQ) iştirak ilk dəfə iştirak edən şəxslər üçün ödənişsiz, təkrar iştirak etmək istəyənlər üçün isə ödənişli olacaq.

Eləcə də, dəyişikliyə əsasən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər, o cümlədən əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, şəhid ailəsinin üzvləri, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış şəxslər MİQ müsabiqəsində təkrar iştirak etdiyi halda, bu ödənişdən azaddırlar.

Dəyişikliyin aparılmasında məqsəd MİQ müsabiqəsinin dayanıqlılığının təmin edilməsi, iştirakçıların məsuliyyətinin artırılması və büdcə vəsaitlərindən daha səmərəli istifadə olunmasıdır.

Eyni zamanda Qanuna edilən dəyişiklik sosial ədalətlilik prinsipi qorunmaqla müəllim seçiminin keyfiyyətinin yüksəldilməsinə, təkrar və məqsədsiz müraciətləri azaltmaqla resurslardan məqsədyönlü və səmərəli istifadə edilməsinə xidmət edir.

Xərclərin optimallaşdırılması baxımından effektiv alət kimi qiymətləndirilən bu yanaşma beynəlxalq təcrübədə də geniş tətbiq olunur.

Qeyd edək ki, son on ildə təxminən 50 min nəfərə yaxın namizəd MİQ əsasında müddətsiz əmək müqaviləsi ilə işlə təmin olunub.

# Nazir müavini Koreya Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb

Yanvarın 12-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Koreya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kym gu Kang ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.



# İslahatlar, yeniliklər, nailiyyətlər

## 2025-ci il təhsildə hansı uğurlarla yadda qaldı?

### Ali təhsil

**Elmi-tədqiqat**

*Beynəlxalq elmmetrik bazalara çıxış imkanı*

2025-ci ildə “Elsevier” və “Clarivate Analytics” şirkətləri ilə yenidən imzalanmış müqavilələr əsasında 150-dən çox elm və ali təhsil müəssisəsinə “Scopus” və “Web of Science” elmmetrik bazalarına, eləcə də “ProQuest Central” və “Cambridge University Press” kimi elmi informasiya resurslarına çıxış imkanı yaradılıb, həmin resurslardan sərbəst istifadə təmin edilib.

*Alimlərin mükafatlandırılması*

2025-ci ildə ETN-in tabeliyində olan elmi müəssisələrdə çalışan tədqiqatçıların elmi göstəriciləri əsasında A, B və C kateqoriyaları üzrə maddi mükafatlandırılması həyata keçirilib. Belə ki, layihə çərçivəsində 22 müəssisədən 260-dan çox tədqiqatçı mükafatlandırılıb.

*Nüfuzlu beynəlxalq jurnallarda çap olunan məqalə sayında artım*

“Elsevier” şirkətinə məxsus “Scopus” elmmetrik bazasında indekslənmiş jurnallarda Azərbaycan alimləri tərəfindən dərc olunmuş nəşrlərin sayı 2025-ci ildə əhəmiyyətli artım göstərib. Belə ki, 2023-cü ildə 2924, 2024-cü ildə 4684 olan nəşrlərin sayı 2025-ci il üzrə cari dövrdə 6113-ə çatıb. Bu göstərici 2024-cü illə müqayisədə təxminən 30 faizə yaxın, 2023-cü illə müqayisədə isə təxminən 2,1 dəfə (109 faiz) artım deməkdir. “Clarivate™” şirkətinə məxsus “Web of Science” elmmetrik bazasında indekslənmiş jurnallarda Azərbaycan alimləri tərəfindən dərc olunmuş nəşrlərin sayında 2025-ci ildə artım olub. Belə ki, 2023-cü ildə 1668, 2024-cü ildə 3476 olan nəşrlərin sayı 2025-ci il üzrə cari dövrdə 4259-a çatıb. Bu göstərici 2024-cü illə müqayisədə təxminən 22-23 faizə yaxın, 2023-cü illə müqayisədə isə təxminən 2,6 dəfə (155 faiz) artım deməkdir.

*Tədqiqatçıların ödənişsiz məqalə dərc etdirməsi*

Böyük Britaniyanın nüfuzlu Kembric Universitetinin “Cambridge University Press” elmi elektron resurs və nəşriyyat platformasında Azərbaycanda fəaliyyət göstərən bütün müəlliflər növbəti 3 il ərzində bu nəşriyyat tərəfindən yayımlanan yüksək impakt-faktorlu 422 hibrid və “gold” açıq girişli (Open Access) jurnalda limitsiz sayda ödənişsiz məqalə dərc etmək və həmin elmi resurslardan sərbəst istifadə etmək imkanına malik olacaqlar.

*2025-ci ilin elmmetrik göstəriciləri*

Cari ilin 12 ayı ərzində “sahə üzrə istinad təsiri” göstəricisi 1,70-dək artıb. 2025-ci ildə Q1 indeksli elmi jurnallarda 2970-dən çox, Q2 indeksli elmi jurnallarda isə 1250-dən çox elmi nəşr dərc olunub. Q1 indeksli jurnallarda dərc olunan məqalələrin sayı Q2 indeksli jurnallarla müqayisədə təxminən 2,4 dəfə çox olub.

*“Scopus AI” - tədqiqat bacarıqlarının inkişafı*

ETN-in təşəbbüsü ilə “Elsevier” şirkəti tərəfindən yaradılmış və Azərbaycanda ilk dəfə 2024-cü ildə istifadəyə verilmiş süni intellekt əsaslı elmi məlumat axtarış sistemi - “Scopus AI” artıq 150-dən çox elmi, eləcə də ali təhsil müəssisəsinin istifadəsindədir.

*Tədqiqatçılar üçün təlimlər*

“Scopus” və “Web of Science” elmmetrik bazalarından, habelə onların müxtəlif alətlərindən səmərəli istifadə və akademik tədqiqatların süni intellektlə transformasiyası mövzusunda əyani və onlayn formatda təşkil olunmuş 30-dan çox təlimdə ümumilikdə 5000-dən artıq tədqiqatçı iştirak edib.

*SABAH qrupları layihəsi*

Hazırda Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin SABAH qrupları layihəsi 13 ali təhsil müəssisəsini, 8 ixtisas istiqaməti üzrə 71 ixtisas və ixtisaslaşmanı, bakalavriat və magistratura səviyyələri üzrə 2785 tələbəni və 8212 məzunu əhatə edir.

*“CodeForFuture” layihəsi*

“CodeForFuture” layihəsi üzrə 2025-ci ildə ümumilikdə 8 ali təhsil müəssisəsinin 3-cü və 4-cü kurslarında təhsil alan 1400-dən çox tələbəyə 12 ixtisaslaşma əsasında kurslar tədris edilib. Bu kurslar “Front-end Proqramlaşdırma”, “Back-end proqramlaşdırma”, “Kiber təhlükəsizliyin əsasları”, “Autocad & Solidworks”, “Pyhton Proqramlaşdırma”, “Veb-tərtibatçı”, “Sistem inzibatçılığı”, “Süni intellekt dəstəkli proqramlaşdırma”, “Data analitikası”, “Proqram təminatının test edilməsi (QA)”, “İT Mütəxəssis” və “İnformatika müəllimliyi” modullarını əhatə edib.

*Orta ixtisas təhsili müəssisələrində monitorinqlər*

2025-ci ildə 13 orta ixtisas təhsil müəssisəsində audit və monitorinq həyata keçirilib. Monitorinqlərin nəticəsinə uyğun olaraq orta ixtisas təhsil müəssisələrində direktor və direktor müavini vəzifəsi olmaqla ümumilikdə 26 yeni təyinat olub.

*Əlavə təhsil müəssisələrinə lisenziya verilməsi*

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi tərəfindən 9 əlavə təhsil mərkəzinin fəaliyyətinin lisenziyalaşdırılması ilə bağlı müraciətlərə baxılıb, müvafiq komissiya tərəfindən müəssisələrə baxış keçirilib və 5 əlavə təhsil müəssisəsinə müsbət rəy verilib.

*Tələbələrin yerdəyişməsi*

2025-2026-cı tədris ili üçün ali və orta ixtisas təhsil müəssisələrində təhsil alan ümumilikdə 1687 tələbə təhsil müəssisəsinin, ixtisasın və təhsilalma formasının dəyişdirilməsi üçün müraciət edib və 958 müraciət müsbət nəticə ilə yekunlaşıb.

# DÖVLƏT PROQRAMI MƏZUNLARI haradadırlar?



Müasir dövrdə ölkələrin inkişafı yüksək səriştə və bacarıqlara, çağdaş dövrün tələblərinə uyğun yeni elmi sahələrdə ixtisaslaşmış yüksəkixtisaslı mütəxəssis hazırlığından asılıdr. Son illərdə Azərbaycandan kənarda dövlət və hökumət proqramları ilə təhsil alaraq Vətənə dönən gənc məzunlarımız hazırda ayrı-ayrı ali təhsil müəssisələrində, ölkə həyatının müxəlif sahələrində əzmlə çalışmaqdadırlar. “Azərbaycan müəllimi” onlardan birini, Böyük Britaniyada doktorantura təhsilini başa vuraraq cari ilin sentyabrından ADA Universitetində çalışan Lalə Quluzadəni oxuculara təqdim edir.

## ADA-nın gənc müəllìmì

# “PhD təhsilim məhsuldar keçdi”



## “Bu proqram gənclər üçün böyük bir fürsətdir”

- *Öncə sizi tanıyaq. Oxuculara özünüz barədə məlumat verərdiniz.*

– İbtidai təhsilin 1-ci sinfini Bakıda yerləşən 30 nömrəli tam orta məktəbdə, sonrakı ibtidai və orta təhsillərimi isə İstanbulda tamamladım. Lisey və bakalavr təhsilimi Ankarada aldım. 2009-cu ildə Qazi Universitetinin Memarlıq və mühəndislik fakültəsinin “Sənaye məhsulları dizaynı” (product design) ixtisasına daxil oldum və 2014-cü ildə təhsilimi başa vurdum. Magistr təhsilimi yenə eyni sahə üzrə, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın təqaüdçüsü olaraq, İtaliyanın Milan şəhərində yerləşən Scuola Politecnica di Design (SPD) Universitetində “Sənaye məhsulları dizaynı” ixtisası üzrə tamamladım.

Təhsilimi başa vurduqdan sonra Türkiyədə bir sıra şirkətlərdə və startap layihələrində çalışdım. Sonra “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Böyük Britaniyanın Lankaster Universitetində “Computing and Communications” departamentində Kompüter mühəndisliyi, İnsan-kompüter əlaqəsi (Human-Computer Interaction) sahəsi üzrə doktorantura (PhD) təhsilinə başladım və bu təhsili 2025-ci ilin noyabr ayında tamamladım.

### “Hər zaman işimə qarşı çox tələbkar olmuşam”

- *Sizi PhD təhsilinə cəlb edən nə oldu? Gözləntiləriniz özünü doğrultdumu?*

– Doktorantura təhsili almaq hər zaman arzularım arasında olub, lakin magistratura təhsilindən dərhal sonra doktoranturaya müraciət etmək istəmirdim. Çünki düşünürdüm ki, əvvəlcə praktiki təcrübə qazanmaq vacibdir və bunu da yalnız dövlət və ya özəl sektorda, eləcə də müxtəlif layihələrdə çalışmaqla əldə etmək mümkündür. Atam kimya professorudur və mən uşaq yaşlarımdan onun elmi-tədqiqatlar apardığını, dərs dediyini görmüşəm. O, mənə internetdə düzgün suallar verərək necə araşdırma aparmağı öyrətmişdi. Məni PhD təhsilinə cəlb edən ilk stimul da məhz atamın nümunəsi və ardınca müəyyən bir mövzuda daha əvvəl soruIlmamış sualların cavabını tapmaq, tapılan cavabların isə insanlar üçün faydalı ola bilməsi ideyası oldu. Hər zaman işimə qarşı çox tələbkar olmuşam və rəhbər seçimində də tələbkar bir rəhbərlə çalışsam, gözlədiyim nəticələri əldə edəcəyimə inanırdım. Və gözləntilərimdən də yüksək səviyyədə, son dərəcə məhsuldar üçillik aktiv bir doktorantura təhsili aldım.

### Mindful eating - çox aktual mövzudur

- *Xaricdə PhD təhsiliniz, tədqiqat mövzunuz barədə məlumat verərdiniz?*

– Rəhbərimin araşdırma sahəsi mental və fiziki sağlamlığı dəstəkləyən elmi-tədqiqatlarla bağlıdır, mənim mövzum isə “Novel Interactive Technologies and Design Tools for Mindful Eating”, yəni “Fərqində Qidalanma üçün İnteraktiv Texnologiyalar və Dizayn Vasitələri” ilə əlaqədar idi. Qida insan üçün ən əsas ehtiyaclardan biridir və sağlam olmayan qidalanma vərdişləri, həmçinin qidalanma pozuntuları bir çox xroniki xəstəliyin yaranmasına səbəb olur. Doktorantura təhsilim müddətində təxminən 36 mütəxəssislə müsahibələr və müxtəlif vörkşoplar keçirərək onların təcrübələrindən yararlanmışıq. Bu məlumatlar əsasında “ağıllı qab” və mobil tətbiq dizayn etmişik və bu sistem daha sonra dietoloq və digər mütəxəssislərin öz pasiyentləri üçün istifadə edə biləcəyi bir formaya gətirilmişdir. Hazırda bu istiqamətdə tədqiqatlarımız davam edir.

### PhD təhsili almaq ciddi bir qərardır

- *Hazırda PhD təhsilinə maraq artır. Siz öz təcrübənizdə bunu nə ilə izah edərdiniz?*

– Bəli, bu proqram ölkəmizdəki gənclər üçün böyük bir fürsətdir və ölkələrin gələcək inkişafını məhz təhsilə və elmə verilən dəstək müəyyən edir. Düşünürəm ki, PhD təhsili almaq ciddi bir qərardır, çünki əvvəlki heç bir təhsil mərhələsinə bənzəmir, ən azı mənim üçün belə idi. Bu prosesdə həyatınızın 3-4 ili boyunca bir və ya bəzən iki rəhbərlə birlikdə seçdiyiniz elmi mövzu üzərində dərin araşdırmalar aparırsınız. Seçdiyiniz rəhbərin fiziki və mental olaraq yorucu ola bilən bu təhsil yolu boyunca sizə dəstək göstərməsi son dərəcə vacibdir. Buna görə də qərar verməzdən əvvəl bir neçə potensial rəhbərlə görüşmək və onları yaxından tanımaq çox önəmlidir.

### PhD-yə müraciət proseduru

- *Gənclərə PhD təhsilinə qəbul şərtləri barədə nə kimi məlumatlarınızı bölüşə bilərsiniz? Proqrama necə qəbul olmaq olar və nələrə diqqət yetirmək lazımdır?*

– İstəyim hər zaman Böyük Britaniyada PhD təhsili almaq olduğundan, ilk olaraq maraqlandığım sahələrdə çalışan potensial rəhbərləri araşdırmaqla başladım. Bildiyiniz kimi, texnologiyadakı sürətli dəyişikliklər gələcəyin ixtisaslarının formalaşmasına böyük təsir göstərir. Mənim əvvəlki təhsilim “product design” olduğu üçün bu sahədəki biliklərimi daha da genişləndirmək və eyni zamanda sağlamlıqla bağlı texnologiyaların dizaynına olan marağımı davam etdirmək istəyirdim. Buna görə “human-computer interaction” sahəsini seçdim.

Bir çox gəncin universitetin adına əsaslanaraq seçim etməsinə baxmayaraq, mən daha fərqli meyarlar müəyyən etmişdim. Böyük Britaniyadakı “King’s College”, “Newcastle” və “Birmingham” kimi universitetlərdən qəbul almağıma baxmayaraq, hazırkı rəhbərim professor Corina Sasın “human-computer interaction” sahəsində tanınmış bir alim olması, milyon funtluq qrant layihələrinə rəhbərlik etməsi və Lankaster Universitetində çalışması mənim üçün doğru qərarı müəyyənləşdirdi. PhD-yə müraciət proseduru belədir: əgər magistratura təhsilini aldığınız universitetdə doktoranturaya davam etmək istəyirsinizsə, böyük ehtimalla rəhbəriniz artıq sizin akademik potensialınızı bilir və sizə uyğun tədqiqat mövzusu təklif edə bilər. Əgər tamamilə başqa universitetdə təhsilə davam etməyi planlaşdırırsınızsa, çox vaxt universitetlərin özləri sponsorluq etdikləri PhD mövzularını elan edir və burada tələb olunan kriteriyaları qeyd edirlər.

Mən isə araşdırma mövzumu müəyyənləşdirmək üçün bir ilə yaxın fərqli məqalələr oxumağa çalışmışdım. Daha sonra rəhbərimə e-poçt yazdığım zaman, iki gün sonraya onlayn görüş təyin etmişdi. Görüş zamanı mövzuda bəzi düzəlişlər etməyimi tövsiyə etdi və əlavə oxu materialları göndərdi. Bu mərhələdən sonra təxminən 5-6 ay ərzində mütəmadi onlayn görüşlərimiz oldu və araşdırma planım dəqiqləşdi. Ardınca Elm və Təhsil Nazirliyinin saytında tələb olunan sənədləri hazırlayaraq doktorantura proqramına müraciətimi tamamladım. PhD təhsili almaq istəyən tələbələrə tövsiyəm odur ki, potensial rəhbər namizədlərinin keçmiş və hazırkı tələbələri ilə əlaqə saxlasınlar və onların təcrübələrini öyrənsinlər. Mən də rəhbərimin yeni məzun olmuş doktorantı ilə görüşmüşdüm və o, bütün təcrübələrini tam şəffaf şəkildə mənimlə bölüşmüşdü.

### Komfort zonasını tərk etmək yeni bir başlanğıcdır

- *PHD proqramına qəbul zamanı əvvəlki illərdə əldə olunmuş təhsil və akademik nailiyyətlər, eləcə də karyera təcrübəsi də nəzərə alınırmı?*

– Bu, əslində, seçdiyiniz rəhbərə bağlı olan bir məsələdir. Mənim uzun illər iş təcrübəm olduğu və rəhbərim də dizayner kimi uzun müddət çalışdığımı bildiyi üçün sahib olduğum texniki bacarıqların elmi araşdırma çərçivəsində hazırlayacağım prototip və ya texnologiya üçün daha dəyərli olacağını düşünürdü. Bu isə həm rəhbərimlə, həm də departamentimizdəki digər tədqiqatçılarla birgə işlədiyimiz elmi layihələrdə mənə böyük kömək etdi. Yeddiillik iş təcrübəsindən sonra yenidən təhsilə qayıtmaq, əlbəttə ki, çətin idi: çünki komfort zonanızı tərk edərək yeni bir başlanğıc edirsiniz. İş həyatındakı kimi müəyyən saatlar arasında çalışmaq əvəzinə, sizi həftənin hər gününə yayılan intensiv və davamlı bir təhsil prosesi gözləyir.

### “Elmi rəhbərimin yaddaşında uğurlu bir tələbə kimi qalmaq istəyirdim”

- *PhD təhsilinizdə əcnəbi elmi rəhbərlərin, professorların dəstəyini necə qiymətləndirərdiniz? Elmi mövzunuzun müdafiəsi necə keçdi?*

– PhD təhsili aldığım departamentdə hər altı ayda bir tələbənin irəliləyişinin qiymətləndirilməsi üçün xüsusi bir forma doldurulması və elmi rəhbər tərəfindən təsdiqlənməsi tələb olunurdu. Təxminən il yarımlıq müddətdən sonra isə “confirmation panel” adlanan bir mərhələ keçirilirdi, yəni doktorantura tələbəsinin PhD namizədi statusuna keçidi üçün kiçik bir müdafiə prosesi təşkil olunurdu. Bu paneldə sizə araşdırmanızla bağlı müxtəlif suallar ünvanlanır və onlara qənaətbəxş cavab verdiyiniz halda PhD namizədi olmağa layiq görülürsünüz. Mənim panelim çox uğurlu keçmişdi.

PhD təhsilim olduqca məhsuldar və dolğun keçdi; bu illər ərzində üzərində çalışdığımız bütün məqalələr ən yaxşı konfrans və jurnallara qəbul olundu. Bu uğura görə, şübhəsiz ki, hər zaman mənə dəstək olan rəhbərimə, qarşıma çıxan bütün çətinliklərə inadla və səbirli şəkildə davam edən özümə, eləcə də ailəmə və yaxın dostlarıma borcluyam. Çünki bəzən elə anlar olur ki, yarım ilə yaxın üzərində çalışdığınız elmi araşdırma yaxşı rəylər almadığı üçün qəbul edilmir. Bunun isə bir çox səbəbi var: suni intellekt istifadəsinin artması, elmi araşdırmaların çoxalması, məqalələri qiymətləndirən rəyləşdiricilərə (reviewers) çox zaman ödəniş edilməməsi və ya PhD təhsilinin ilk ilində olan, kifayət qədər təcrübəsi olmayan tələbənin məqaləni dəyərləndirməsi və s. Bunlar elmi araşdırma aparanların tez-tez qarşılaşdığı çətinliklərdən yalnız bir neçəsidir.

Araşdırmalarımı üç ildən daha qısa müddətdə tamamladığım üçün PhD təhsilimi cəmi üç ilə bitirdim. Noyabrın 5-də müdafiəm baş tutdu və mən doktor elmi dərəcəsini əldə etdim. Mən rəhbərimin yaddaşında azərbaycanlı və uğurlu bir tələbə kimi qalmaq istəyirdim.

### ADA - tələbələrinə ən yaxşı imkanları təqdim edən universitet

- *Artıq ADA universitetində çalışırsınız. Bu ali məktəbdə fəaliyyətiniz barədə nə deyərdiniz? Gənc mütəxəssis olaraq buradakı tədris mühitini necə qiymətləndirərdiniz?*

– Bəli, sentyabr ayından etibarən ADA Universitetində çalışıram və “Human-computer interaction” dərsini tədris edirəm. PhD təhsilim müddətində ADA-da proqram tələblərindən biri kimi seminarlar keçmişdim. ADA Universiteti ölkəmizin yeniliklərə açıq, daim özünü inkişaf etdirməyə çalışan və tələbələrinə ən yaxşı imkanları təqdim etməyə səy göstərən önəmli ali təhsil müəssisələrindən biridir. Universitetin bu dinamizmi, xarici alimlər və müxtəlif beynəlxalq universitetlərlə sıx əməkdaşlıq əlaqələri burada çalışdığım üçün özümü şanslı hiss etməyimə səbəb olur. Yaxın zamanda yeni açılan İtalyan-Azərbaycan Universitetində də dərs deməyə başlayacağam. Multidissiplinar təhsilə sahib olduğum üçün burada bilik və təcrübəmi tətbiq etmək imkanı əldə etməyim mənim üçün böyük bir fürsətdir.

### Qızların elmdə aktivliyini artıran əsas amillər...

- *Ölkəmizdə qızların elmi-tədqiqatlarda iştirakı, alim kimi formalaşması barədə nə deyərdiniz?*

– Azərbaycanda qızların elmi-tədqiqatlarda iştirakı son illərdə sürətlə artıb və bu inkişafın həm dövlətin elm və təhsil sahəsində həyata keçirdiyi siyasətlə, həm də cəmiyyətdə getdikcə formalaşan müsbət yanaşma ilə bağlı olduğunu düşünürəm. Xaricdə təhsil proqramları, STEAM mərkəzləri və gənc alimlərə dəstək layihələri qızların elmdə aktivliyini artıran əsas amillərdəndir. Ailə və cəmiyyətin gender bərabərliyinə daha pozitiv yanaşması bu prosesə mühüm təsir göstərir. Qızların elm sahəsində daha da güclənməsi üçün mentorluq proqramlarının genişləndirilməsi, karyera inkişaf imkanlarının artırılması və STEM sahələrində qadın rol modellərinin sayının çoxaldılması xüsusi əhəmiyyət daşıyır.

### Tələbələrə mentorluq etmək gələcək planlarım arasındadır

- *Növbəti hədəfləriniz barədə...*

– Elmi araşdırmalarıma aktiv şəkildə davam etmək, əldə etdiyim bilikləri tələbələrlə bölüşmək və eyni zamanda xaricdə təhsil almaq istəyən gənclərlə təcrübələrimi paylaşaraq onlara mentorluq etmək planlarım arasındadır. Digər məqsədlərimdən biri isə həm elmi rəhbərimi, həm də yaxın əməkdaşlıq etdiyim digər tədqiqatçıları ölkəmizə dəvət edərək onların seminar və təlimlərini təşkil etməkdir. Bu, həm elmi mühitin inkişafına, həm də tələbələrin beynəlxalq perspektiv qazanmalarına mühüm töhfə verə bilər.

**Oruc MUSTAFAYEV**

# 2026/2027-ci tədris ili üzrə Dövlət Proqramının əhatə etdiyi universitet və proqramların siyahısı təsdiqlənib




Ölkə Prezidentinin müvafiq Sərəncamına əsasən təsdiq olunmuş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2026/2027-ci tədris ilində dünyanın nüfuzlu universitetlərinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə maliyyələşdiriləcək təhsil proqramlarının siyahısı müəyyən edilib.

Təsdiq olunmuş yeni siyahıya əsasən, namizədlərə 15 prioritet ixtisas istiqaməti üzrə dünyanın 33 ölkəsini təmsil edən 231 nüfuzlu ali təhsil ocağında tədris olunan ümumilikdə 4121 proqram üzrə təhsil almaq imkanı yaradılıb.

Dövlət Proqramı üzrə illik kvota 500 nəfər təşkil edir. Bu kvota çərçivəsində rəqabət mühitinin tənzimlənməsi məqsədilə müraciət sayından asılı olaraq prioritet ixtisas istiqamətləri üzrə keçid balları tətbiq edilə bilər.

Xüsusi olaraq qeyd edək ki, Dövlət Proqramının 15 prioritet ixtisas sahəsi ilə yanaşı, “Mədəniyyət və incəsənət” sahəsi üzrə də bu il imkanlar genişləndirilib. Belə ki, ötən illə müqayisədə bu istiqamət üzrə siyahıya daxil edilən nüfuzlu ali təhsil müəssisələrinin sayı artırılıb.

Nəzərə çatdıraq ki, beynəlxalq reytinq sistemlərində ilk 10-luqda yer alan ali təhsil müəssisələrinə və doktorantura səviyyəsinə münasibətdə dəyişikliklər mövcuddur.

# ALİ TƏHSİLƏ YENİ BAXIŞ

## Fərqli strategiya nəticə

**2025**-ci il Mingəçevir Dövlət Universiteti (MDU) üçün təkcə növbəti tədris ili deyil, ali təhsilin yeni inkişaf mərhələsinə keçidi şərtləndirən strateji qərarların real nəticələrlə müşayiət olunduğu, universitetin regional missiyadan qlobal akademik məkana doğru sistemli transformasiya yolunda mühüm mövqelər qazandığı hesabat dövrü kimi xarakterizə olunur. Xüsusilə son 9 ayda MDU-da tədris, elmi-tədqiqat, beynəlxalq əməkdaşlıq, sənaye inteqrasiyası və sosial innovasiya istiqamətlərində həyata keçirilən kompleks islahatlar universitetin inkişaf trayektoriyasını keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş dövlətçilik strategiyasının mühüm tərkib hissələrindən biri insan kapitalının formalaşdırılması, elmin və təhsilin milli inkişafın əsas dayaqlarından biri kimi inkişaf etdirilməsi olmuşdur. Məhz bu strateji baxış müstəqil Azərbaycanın ali təhsil sisteminin davamlı inkişafının ideoloji və institusional əsaslarını formalaşdırmışdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi və inteqrasiya yönümlü modernləşmə siyasəti həmin strateji xəttin müasir çağırışlara uyğun şəkildə davam etdirilməsini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ilin 3 noyabr tarixində Azərbaycan Milli Elmlər Akademiyasında etdiyi çıxışda milli inkişafımızı müəyyən edəcək strateji konsepsiyanın təqdim olunması və bu konsepsiyada elm və sənayenin birgə fəaliyyətinin əsas prioritetlərdən biri kimi vurğulanması ali təhsil müəssisələrinin qarşısında yeni və daha məsuliyyətli vəzifələr müəyyən etmişdir. Dövlət başçısının bu çıxışı ilə ölkənin dayanıqlı sosial-iqtisadi inkişafının təmin olunmasında universitet-sənaye əməkdaşlığının həlledici rolu xüsusi olaraq ön plana çəkilmiş, bilik iqtisadiyyatına keçidin əsas aparıcı qüvvəsi kimi ali təhsilin funksional rolu bir daha təsdiqlənmişdir.

Mingəçevir Dövlət Universiteti məhz bu dövlət siyasətinin prioritetlərinə uyğun şəkildə transformasiya yoluna çıxmış, ötən il ərzində həyata keçirdiyi genişmiqyaslı layihələri, sənaye əməkdaşlıqları, beynəlxalq tərəfdaşlıqlar və tədris keyfiyyətinin yüksəldilməsi ilə bağlı islahatları ilə regional ali təhsil modelinin müasir nümunəsinə çevrilmişdir. 2024/2025-ci tədris ilinin yaz semestri və 2025/2026-cı tədris ilinin payız semestri MDU üçün yalnız tədris prosesinin yenilənməsi deyil, həm də universitetin yerli potensialdan qlobal təhsil məkanına çıxış strategiyasını təsdiqləyən fundamental nəticələri ilə yadda qalmışdır.

Mingəçevir Dövlət Universitetində tədqiqat yönümlü universitet modelinə keçid insan kapitalının gücləndirilməsi və elmi potensialın sistemli şəkildə inkişaf etdirilməsi üzərində qurulmuşdur. Bu kontekstdə 2025-ci ilin iyun ayından etibarən universitetdə akademik heyətin yenilənməsi və tədris-tədqiqat mühitinin keyfiyyətcə yaxşılaşdırılması məqsədilə mühüm addımlar atılmışdır. Belə ki, sənayedə çalışan mütəxəssislər və professor-müəllim heyəti üçün 165 fənn üzrə 63 vakant yerə açıq qəbul elan edilmiş, bu proses nəticəsində 100-dən çox yeni müəllim Mingəçevir Dövlət Universitetində əmək fəaliyyətinə başlamışdır. Yeni cəlb olunan kadrlar tədrislə yanaşı, tətbiqi və elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsinə də töhfə verməkdədir.

Hazırda Mingəçevir Dövlət Universitetinin əməkdaşlarından 11 nəfəri elmlər doktoru, 34 nəfəri isə fəlsəfə doktoru proqramları üzrə respublikanın müxtəlif ali təhsil müəssisələrinin, Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarının, eləcə də Türkiyə Respublikasının nüfuzlu ali məktəblərinin doktorant və ya dissertantıdır. Bu göstəricilər universitetdə elmi kadr hazırlığının ardıcıl şəkildə genişləndirildiyini, gənc tədqiqatçı nəslinin formalaşdığını və akademik resursların keyfiyyət baxımından davamlı olaraq yeniləndiyini aydın şəkildə nümayiş etdirir.

### Universitet-sənaye əməkdaşlığında yeni yanaşma

Mingəçevir Dövlət Universiteti regionda ali təhsilin tətbiqyönümlü modelini daha da inkişaf etdirərək “universitet-sənaye” əməkdaşlığı üzrə yeni yanaşma tətbiq etmişdir. Bu çərçivədə MDU tələbələrinin Azərbaycan İstilik Elektrik Stansiyasında (“Azərbaycan İES”) dərslərdə iştirakı onların biliklərinin istehsalat prosesləri ilə sintezini təmin etmiş, enerji mühəndisliyi üzrə praktiki səriştələrin formalaşmasına mühüm töhfə vermişdir. Real iş mühiti ilə erkən tanışlıq tələbələrin peşə fəaliyyətinə adaptasiyasını sürətləndirmiş, insan resurslarının formalaşmasında universitet və sənaye arasında qarşılıqlı məsuliyyət mexanizmini gücləndirmişdir.

Bu istiqamətdə mühüm hadisələrdən biri ötən ilin 24 oktyabr tarixində keçirilmiş Regional Universitet-Sənaye Birliyi Sammiti 2025 olmuşdur. Sammit regionda təhsil müəssisələrinin, dövlət qurumlarının və özəl sektorun əməkdaşlığını sistemli platformaya çevirməklə əmək bazarının ehtiyaclarına uyğun kadr hazırlığı prosesini daha funksional formata daşımışdır. Tədbirdə 110 dövlət və özəl müəssisə, 683 vakansiya, 787 təcrübə proqramı, 90 startap layihəsi təqdim edilmişdir.

Sammit çərçivəsində Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası, Azərbaycan Sahibkarlar Konfederasiyası, Azərbaycan HR








İnstitutu və “Proqress” Təlim Mərkəzi ilə imzalanan əməkdaşlıq memorandumları isə MDU-nun tətbiqyönümlü təhsil xəttini daha da gücləndirmişdir. “Azəralüminium” MMC ilə Əməkdaşlıq Memorandumu xüsusilə mühəndislik ixtisaslarında təhsil alan tələbələr üçün yüksək texnologiyalı istehsalat mühitinə inteqrasiya baxımından əhəmiyyətli addım olmuşdur.

Bundan başqa, MDU-nun digər sektorlarda qurduğu əməkdaşlıqlar tələbələrin bilik və bacarıqlarını müxtəlif sahələrdə praktik olaraq inkişaf etdirməyə şərait yaradır. Məsələn:

* *Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) ilə əməkdaşlıq tələbələrin biznes mühitində təcrübə toplamasını, iş yarmarkalarında iştirakını və startap təşəbbüslərinin dəstəklənməsini təmin edir;*
* *İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə birgə layihələr proqramlaşdırma, kibertəhlükəsizlik və rəqəmsal texnologiyalar üzrə tədris və təcrübəni gücləndirir;*
* *Psixologiya Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlıq tələbələrin sosial və psixoloji sahələrdə praktiki bacarıqlarını inkişaf etdirir, elmi-tədqiqat layihələrinə cəlb olunmasına imkan yaradır;*
* *“JOB IN GLOBAL” MMC və “Qafqaz-Qəbələ” MMC ilə beynəlxalq və regional turizm obyektlərində təcrübə proqramları tələbələrə nəzəri biliklərini praktik bacarıqlarla birləşdirmək, peşəkar inkişaf və beynəlxalq əmək bazarına inteqrasiya imkanları verir.*

Turizm ixtisasları üzrə yaradılan “Tourism Skills Lab” laboratoriyası bu yanaşmanın ən bariz nümunələrindən biridir. “ElektraWeb”, “Opera”, “HBO” kimi beynəlxalq hotelçilik proqramlarının tədrisə inteqrasiyası tələbələrə turizm sahəsini nəzəri deyil, real əməliyyatlar üzərindən öyrənmək imkanı yaradıb. Qonaqların qeydiyyatı, rezervasiya, xidmətlərin idarə olunması, analitik hesabat və PMS inteqrasiyası kimi proseslərin laboratoriya şəraitində praktiki şəkildə icrası MDU-da turizm tədrisinin mahiyyətcə dəyişdiyini göstərir. Bu prosesin davamı olaraq müəllim heyətinin türkiyəli mütəxəssislər tərəfindən təlimlərə cəlb edilməsi tədrisin dayanıqlı və aktual qalmasına xidmət edir.

Eyni zamanda, “Kapital Bank” ilə əməkdaşlıq çərçivəsində yaradılan “Birbank Fintech” laboratoriyası MDU-da maliyyə və iqtisadiyyat ixtisasları üzrə tədrisin praktiki əsaslar üzərində qurulmasına imkan verib. Rəqəmsal bankçılıq, maliyyə texnologiyaları və fintech yanaşmaları ilk dəfə olaraq laboratoriya mühitində tədris olunmağa başlanıb, tələbələr üçün real bank sektorunda istehsalat təcrübəsi mexanizmi formalaşdırılıb.

İnformasiya texnologiyaları sahəsində isə MDU-nun “Cisco Networking Academy”nin rəsmi akademik tərəfdaşı statusunu qazanması universitetin regionda rəqəmsal bacarıqlar üzrə mövqeyini əsaslı şəkildə gücləndirib. CCNA, proqramlaşdırma, “Linux”, “Cloud Security”, süni intellekt, məlumat elmi və kibertəhlükəsizlik üzrə beynəlxalq standartlara uyğun kursların tədrisə daxil edilməsi həm fənn proqramlarının, həm də sillabusların tamamilə yenilənməsinə səbəb olub. Bu əməkdaşlıq nəticəsində tələbələr yalnız diplom deyil, qlobal əmək bazarında tanınan sertifikatlar əldə etmək imkanı qazanıblar.

### “Cambridge” modeli üzrə tədrisə keçid və xarici dil bacarıqlarının gücləndirilməsi

2025-ci ildə Mingəçevir Dövlət Universitetində xarici dillərin tədrisi və qiymətləndirilməsi sahəsində konkret nəticələrə əsaslanan struktur dəyişikliklərinə başlanılıb. Bu istiqamətdə əsas addım 8 may 2025-ci il tarixində “Cambridge University Press&Assessment” təşkilatının Azərbaycandakı rəsmi nümayəndəsi ITAC (International Training and Assessment Center) ilə əməkdaşlığa dair Niyyət Protokolunun imzalanması olub.

Sənədə əsasən, MDU-da ingilis dili üzrə tədris planlarının və fənn sillabuslarının “Cambridge” standartlarına uyğunlaşdırılması, müəllim və tələbələrin TKT (Teaching Knowledge Test) və digər “Cambridge Qualifications” imtahanlarında iştirakı, eləcə də ingilis dili ixtisasları üzrə proqramların birgə hazırlanması qərara alınıb. Əməkdaşlıq çərçivəsində universitetdə “Cambridge Resurs” Mərkəzinin yaradılması, rəsmi “Cambridge” imtahanlarının MDU-da təşkili və region üzrə təlimlərin keçirilməsi nəzərdə tutulur. Eyni zamanda imtahanlarda yüksək nəticə göstərən 5 tələbə və 2 müəllimin Londonda Yay Məktəbində universitet hesabına təkmilləşdirmə kurslarında iştirakı planlaşdırılıb.

Cambridge modelinə keçidin ilk praktik mərhələsi olaraq 9 iyul 2025-ci il tarixində MDU-da ingilis dili fənlərini tədris edən müəllimlər üçün özünü sınaq (self-assessment) mərhələsi təşkil edilib. Bu mərhələdə müəllimlərin dil bilikləri, metodik hazırlığı və Cambridge yanaşmasına uyğun pedaqoji bacarıqları qiymətləndirilib. Nəticələrə əsasən hər bir müəllim üçün “Cambridge Assessment” tərəfindən fərdi inkişaf tövsiyələri təqdim olunub. 10 iyul tarixində isə TKT “Module 1” imtahanı keçirilib.

Nəticə olaraq universitetin Xarici dillər kafedrasının bir qrup müəllimi TKT “Module 1” və “Module 2” imtahanlarında uğurla iştirak edərək beynəlxalq sertifikatlar qazanıb. Hazırda digər müəllimlərin də imtahan mərhələlərində iştirakı davam edir. ITAC rəhbərliyi tərəfindən müəllimlərin dərslərinin müşahidə olunması və peşəkar inkişaf üzrə aparılan təhlillər əməkdaşlığın tətbiqi xarakter daşıdığını göstərir.

Qeyd edək ki, “Cambridge” modeli 2025/2026-cı tədris ilindən etibarən yeni ixtisasların I kurslarında tətbiq ediləcək. Müvafiq fənlərin sillabusları, qiymətləndirmə mexanizmləri və dərs vəsaitləri rəsmi nümayəndəlik tərəfindən təmin olunacaq.

Bununla paralel olaraq, “British Council” və Böyük Britaniyanın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə MDU-da akademik və inzibati heyət üzvləri üçün “İngilis dilinin qiymətləndirilməsi və tədrisi” layihəsi həyata keçirilir. Layihə çərçivəsində 40 nəfərədək əməkdaş “British Council” tərəfindən keçirilən səviyyə imtahanlarından sonra 6 ay müddətində, 160 akademik saatlıq, hibrid və ödənişsiz ingilis dili və metodika təlimlərinə cəlb olunub.

Bu addımlar Mingəçevir Dövlət Universitetində xarici dil tədrisinin təsadüfi təşəbbüslər deyil, mərhələli, ölçülə bilən və nəticəyönümlü beynəlxalq model əsasında qurulduğunu göstərir və tədrisin keyfiyyətinə birbaşa təsir edən real mexanizmlər formalaşdırır.

### Strateji hədəflərin nəticələrə çevrildiyi akademik il

2024/2025-ci tədris ilinin yaz semestri və 2025/2026-cı tədris ilinin payız semestri MDU üçün yalnız növbəti akademik il deyil, universitetin strateji hədəflərinin real nəticələrlə ölçüldüyü, yeni tərəfdaşlıqların qurulduğu, sənaye ilə inteqrasiyanın daha da dərinləşdiyi, ali təhsilin beynəlxalq standartlarına uyğun modelin tətbiq olunduğu inkişaf mərhələsi olmuşdur. Hesabat dövründə universitetin fəaliyyət göstəricilərində sabit artım müşahidə olunur və bu artım reallaşdırılan struktur islahatlarının, idarəetmədə çevik qərar mexanizmlərinin, rəqəmsallaşma proseslərinin, beynəlxalq tərəfdaşlıqların və elmi mühitin gücləndirilməsinin nəticəsidir.

### “Məzun günü 2025” və ictimai nüfuzun möhkəmlənməsi

Cari ilin 30 iyun tarixində keçirilən “Məzun günü 2025” isə universitet həyatının təntənəli hadisələrindən biri olmuş, 878 məzunun universiteti uğurla başa vurması ilə yanaşı, tədbirdə dövlət qurumlarının nümayəndələrinin, şəhid ailələrinin və geniş ictimaiyyətin iştirakı MDU-nun ictimai nüfuzunu və milli dəyərlərə sadiqliyini bir daha təsdiqləmişdir. Yeni infrastruktur, innovativ laboratoriyalar, sosial-mədəni layihələr və yaşıl kampus təşəbbüslərinin sintezi MDU-nu müasir ali təhsil məkanı üçün nümunəvi modelə çevirməkdədir.

### Tələbə kontingentinin artımı və keyfiyyət göstəriciləri

Universitetdə tələbə kontingentinin ardıcıl şəkildə genişlənməsi və kadr hazırlığının keyfiyyət göstəricilərində müşahidə olunan yüksəliş ali təhsil müəssisəsinin inkişaf strategiyasının uğurlu tətbiqinin real nəticələridir. 2024-cü ildə universitetdə ümumilikdə 4121 tələbə təhsil aldığı halda, 2025-ci ildə bu rəqəmin 5834-ə çatması MDU-nun region və ölkə üzrə artan nüfuzunun əyani göstəricisidir. Struktur üzrə müqayisəli dinamika göstərir ki, bakalavr səviyyəsində təhsil alanların ümumi sayı 2024-cü ildə 4832 nəfər olduğu halda, 2025-ci ildə 5522 nəfərə yüksəlmişdir. Eyni zamanda, magistratura səviyyəsində təhsil alanların sayı 2024-cü ildə 289 nəfərdən 2025-ci ildə 312 nəfərə çatmışdır.

### Elmi potensial və akademik kadrların inkişafı

2025-ci ildə ali təhsil sektorunda elmi-pedaqoji fəaliyyətin inkişafı istiqamətində Mingəçevir Dövlət Universitetinin iki əməkdaşına dosent elmi adı verilmişdir.

Eyni zamanda, universitetin akademik heyətinin yaş strukturu insan kapitalının strateji şəkildə formalaşdırıldığını göstərir. Belə ki, ümumi akademik heyət tərkibində 88 nəfərin 30 yaşadək, 88 nəfərin isə 40 yaşadək olması Mingəçevir Dövlət Universitetində gənc, dinamik və inkişafyönümlü müəllim korpusunun formalaşdırıldığını təsdiqləyir.

Hesabat dövründə Mingəçevir Dövlət Universitetinin elmi nəşr fəaliyyəti üzrə mühüm irəliləyiş əldə olunmuşdur. Universitetin “Dayanıqlı inkişaf” multidisiplinar elmi jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix və antropologiya elmləri üzrə məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxil edilmişdir. Qeyd edək ki, jurnal bundan əvvəl AAK-nin İqtisad elmləri üzrə müvafiq siyahısında yer almışdır.

Elmi nəticələrin beynəlxalq səviyyədə tanınması baxımından Mingəçevir Dövlət Universiteti 2025-ci ildə mühüm irəliləyiş nümayiş etdirmişdir. Hesabat ilində universitet tədqiqatçılarının 9 elmi məqaləsi “Web of Science”, 17 elmi məqaləsi isə “Scopus” beynəlxalq elmi bazalarında indeksləşdirilmişdir. Bu nəticələr MDU-da aparılan elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldiyini, tədqiqat mövzularının aktual və beynəlxalq elmi gündəliklə uzlaşdığını göstərir.

**(Ardı var)**

**Ceyhun MAHMUDOV,**
*Mingəçevir Dövlət Universitetinin Tədris prosesinin təşkili və idarə olunması məsələləri üzrə müşavir, iqtisad üzrə fəlsəfə doktoru, dosent*

# OYUNLA ÖYRƏNMƏ

## Geymifikasiyanın təhsil mühitində tətbiqi

Murad Əliyev Pekin Pedaqoji Universitetinin "Təhsil texnologiyaları" ixtisası üzrə doktorantı həmin universitetdə fəaliyyət göstərən Rəqəmsal Təhsil Resursları Mərkəzində tədqiqatçıdır. Həmçinin Xəzər Universitetinin müəllimidir. Onun araşdırmaları süni intellektin dərs planlaşdırmasına inteqrasiyası, müəllimlərin düşünmə yönümlü dərs dizaynı üzrə kompetensiyalarının inkişafı və süni intellekt alətlərinin Azərbaycan təhsilinə lokal adaptasiyası istiqamətindədir. Müəllimlər üçün faydalılığını nəzərə alaraq Murad Əliyevin oyunla öyrənmə mövzusunda yazısını təqdim edirik.

Oyunlaşdırma (gamification) təhsildə oyun elementlərinin (məsələn, xal sistemi, lider lövhəsi, hekayə xətti) qeyri-oyun kontekstlərinə tətbiq olunması deməkdir. Tədqiqatlar göstərir ki, oyun elementlərinin dərsə daxil edilməsi tələbələrin motivasiyasını, dərsə marağını və uğur hissini artırır. Bu, sadəcə əyləncə deyil, sınaq və tapşırıqlara məqsədli yanaşmadır. Məsələn, oyun elementləri aydın məqsəd (clear goals), dərhal əks-əlaqə (immediate feedback) və inkişaf etmək (progress) hissi yaradır. Məhz bu zəmin üzərində şagirdlər özlərini daha motivasiyalı hiss edir və dərsdə aktiv rol oynayır. Beləliklə, oyunlaşdırma psixoloji prinsiplərə əsaslanmış təlim dizaynı vasitəsidir və təhsilin sırf "formal" səviyyədən çıxaraq məqsədyönlü, interaktiv formaya keçirilməsinə imkan yaradır.

Oyunlaşdırmanın ən vacib komponentləri onlara daxil edilən oyun ssenarisi (narrative), çətin tapşırıq (challenge), öyrənmənin trayektoriyası (progression) və əks-əlaqənin yaradılması (feedback ) elementləridir:

* ***Oyun ssenarisi (narrative):*** *Dərs tapşırıqları maraqlı bir hekayə kontekstində təqdim olunduqda şagirdlərə öyrənməyə əlavə məqsəd verilir. Tədqiqatçılar qeyd edirlər ki, dərslərə oyun ssenarisi əlavə edəndə, şagirdlərin motivasiyası yüksəlir və fəaliyyətlərə daha çox maraq yaranır. Hekayə dərs materialını daha mənalı hala gətirir, şagirdə məqsəd hissi qazandırır. Nəticədə onlar öyrənməyə daha həvəslə yanaşırlar.*
* ***Çətinləşdirilmiş tapşırıq (Challenge):*** *Oyunlarda tapşırıqlar adətən maraqlı və çətin sınaqlar kimi qurulur. Sinifdə də bu yanaşma tətbiq edilәndә - məsələn, "sirlər otağı" və ya "labirint" tipli tapşırıqlar veriləndə - şagirdlər mövzunu sadəcə oxumur, onu həll etməyə çalışırlar. Onlar düşünür, yollar axtarır və prosesə daha çox qoşulurlar. Belə çətinliklər şagirdlərdə "bacarmalıyam" hissi yaradır və öyrənməyə həvəsi artırır. Nəticədə həm problemi mərhələlərlə həll etmə bacarığı formalaşır, həm də məsuliyyət və davamlılıq inkişaf edir.*
* ***Öyrənmənin trayektoriyası (Progression).*** *Oyunlarda olduğu kimi, dərsin əvvəlində müəyyən edilən öyrənmə hədəfləri müxtəlif mərhələlərə bölünür. Hər mərhələ başa çatdıqda şagirdlərə qələbə, xal və ya nişan verilir. Bu, onlara öyrənmənin yol xəritəsini göstərir və inkişaf hissi yaradır. Məsələn, müəllim dərsi 3-4 səviyyəyə ayıra, səviyyə keçidini müəyyən xalları toplamağa bağlaya bilər. Bu cür mərhələlərlə şagirdlər hər kiçik uğurlarında xoşbəxt olur və sonrakı tapşırığa həvəslə yönəlir.*
* ***Əks əlaqə (Feedback):*** *Oyunlaşdırılmış dərsdə şagirdlər tapşırıq yerinə yetirəndə dərhal qiymətləndirilir, cavabları üçün xal qazanır və səhv varsa düzəliş etmə imkanı əldə edirlər. Bu real vaxtda əks əlaqə ənənəvi imtahanlardan fərqli olaraq öyrənmə prosesini gücləndirir. Məsələn, "Kahoot!" və ya "Quizizz" kimi platformalarda hər sualın cavabından sonra xallar hesablanır və səhvlər dərhal göstərilir, şagird həmin səhvi izah edib düzəltmək üçün ikinci şans qazanır. Beləliklə, şagird öz zəif tərəflərini dərhal görüb təkmilləşə bilər. Tədqiqatlar da göstərir ki, dərhal əks əlaqə şagirdin öyrənməsinə əhəmiyyətli dərəcədə təsir edir.*

Müasir texnologiya bu oyun elementlərinin sinifdə həyata keçirilməsinə geniş imkanlar yaradır. "Padlet", "Kahoot", "Quizizz" və "Wordwall" kimi platformalar müəllimlərə dərsi daha interaktiv dizayn etməyə kömək edir. Padlet platforması vasitəsilə, müəllim və şagirdlər burada mətn, şəkil, video və s. yerləşdirə, ideyalarını paylaşa bilirlər. Padlet real vaxt əməkdaşlığını mümkün edir və qrup müzakirələrini asanlaşdırır. "Kahoot" və "Quizizz" platformaları vasitəsilə, müəllimlər suallar hazırlayır, şagirdlər isə onlayn formada cavab verərək xal yığırlar. Hər düzgün cavab üçün xal verilir və canlı lider lövhəsi vasitəsilə sinifdə rəqabət yaranır. Məsələn, tarix dərsində "Kahoot" oyunu qurmaqla şagirdlər sürət və düzgünlüyə görə xal toplayır, lider lövhəsində öz yerlərini görürlər. Belə viktorinalar dərsi əyləncəli edərək qiymətləndirməni daha az stresli hala gətirir. "Wordwall" plaftorması isə müxtəlif formatlarda (tapmaca, uyğunlaşdırma, anket və s.) mini-oyunlar yaradır. Müəllimlər mövzunu oyun formasında təkrar etmək üçün şablonlardan istifadə edə bilərlər.

## Gələcəyin müəllimləri oyunlaşdırma alətləri ilə üzləşəndə nə baş verir?

### Xəzər Universitetində dərs təcrübəmdən müşahidələr




Ali təhsildə oyunlaşdırma (gamification) getdikcə daha geniş istifadə olunur. Lakin bu yanaşma çox vaxt yalnız motivasiya aləti kimi başa düşülür və onun müəllim hazırlığında yaratdığı dərin pedaqoji imkanlar yetərincə dəyərləndirilmir. Xəzər Universitetində həyata keçirilən dərs əsaslı təcrübə göstərir ki, oyunlaşdırma gələcək müəllimlərin dərs dizaynı, qərarvermə və refleksiya bacarıqlarını inkişaf etdirmək üçün güclü pedaqoji strategiya ola bilər.

Xəzər Universitetində keçdiyim "Təhsildə İKT" dərslərində tələbələrdən "Quizizz", "Blooket", "Quizlet" və "GimKit" kimi oyunlaşdırma (gamification) alətlərindən istifadə edərək düşünmə yönümlü dərs fəaliyyətləri hazırlamalarını tələb edirdim. Məqsədim bu alətləri sadəcə əyləncə vasitəsi kimi yox, təlimi planlaşdırmaq və qiymətləndirmək üçün pedaqoji alət kimi istifadə etmələrini öyrətmək idi.

Dərslərdə oyunlaşdırmanı sadəcə nəzəri mövzu kimi izah etmirdim; mən onu real dərs ssenarisi üzərində quraraq tələbələrə yaşadırdım. Bu ssenarinin əsasında əvvəlcədən süni intellekt vasitəsilə yaradılmış bir hekayə dururdu. Dərsdən əvvəl süni intellektə xüsusi prompt verərək belə bir mətn hazırlatmışdım: insanlar kimi heyvanlar da məktəbə gedir, onların da sinifləri, müəllimləri və təhsil müəssisələri var. Məqsədim tələbələr üçün qeyri-adi, amma dərs mühitinə uyğun bir oyunlaşdırma konteksti yaratmaq idi.

Süni intellektin hazırladığı mətn maraqlı olsa da, dil baxımından bir qədər çətin idi. Mən bu mətni bilərəkdən dərsdə ilk versiya kimi təqdim etdim. Məqsədim tələbələrə real tədris şəraitində oyunlaşdırmada qarşılaşa biləcəkləri əsas problemlərdən birini - yəni narrativin səviyyəyə uyğun olmamasının dərsdə iştirak və motivasiyanı necə zəiflədə biləcəyini göstərmək idi. Tələbələr mətni oxuyanda müəyyən çaşqınlıq yaşadılar və bu, hekayənin oyunlaşdırmada nə qədər kritik rol oynadığını açıq şəkildə ortaya çıxardı.

Daha sonra həmin hekayənin mənim tərəfimdən sadələşdirilmiş və tələbələrin dil səviyyəsinə uyğunlaşdırılmış versiyasını təqdim etdim. Eyni süjet saxlanıldı, amma dil və təlimatlar daha aydınlaşdırıldı. Tələbələr fərqi dərhal hiss etdilər.

Əgər mən onlara sadəcə nəzəri şəkildə "narrativ aydın olmalıdır" desəydim, bu, mücərrəd qalacaqdı. Ona görə də onları qəsdən çətin bir mətnlə üz-üzə qoydum ki, oyunlaşdırmanın ilk mərhələsində yaranan problemləri özləri hiss etsinlər (yəni mətni başa düşməkdə çətinlik, hekayənin məntiqini tutmamaq, motivasiyanın zəifləməsini anlasınlar). Hekayə başa düşüləndə oyunlaşdırma prosesi də canlandı. Beləliklə, onlar narrativin oyunlaşdırmada rolunu nəzəriyyə kimi yox, real dərs təcrübəsi kimi öyrəndilər.

Narrativ mərhələsində tələbələr hekayənin məntiqini və kontekstini anladıqdan sonra, oyunlaşdırmanın ikinci əsas komponentinə - çətinləşdirilmiş tapşırıq mərhələsinə (challenge) keçdik. Bu mərhələdə əsas alətimiz "Padlet" platforması oldu.




"Padlet"də əvvəlcədən yaratdığım müzakirə lövhəsində hekayənin başlanğıcı artıq yerləşdirilmişdi. Sonra tələbələrdən xüsusi olaraq belə bir tapşırıq yerinə yetirmələrini tələb etdim. Hər biri bir-iki cümlə düşünməli və hekayəni ardıcıl şəkildə davam etdirməli idi. Amma bu, sadə yazı tapşırığı deyildi.

Tələbələrə belə bir rol verdim: hər biri hekayədəki bir heyvanın yerinə danışmalı və onun baxış bucağından yazmalı idi. "Padlet"də adlarını da dəyişməli idilər. Üstəlik, cümlələr gülməli və yaradıcı olmalı idi, amma eyni zamanda hekayənin məntiqini pozmamalı idi. Tələbələrdən tələb edirdim ki, hər biri bu hekayəni yalnız bir cümlə ilə davam etdirsin, lakin bunu edərkən üç şərtə əməl etsin:

1. *Əvvəl yazılan cümlələrlə məntiqi uyğunluğü saxlasın,*
2. *Hekayənin əsas mövzusundan kənara çıxmasın,*
3. *Öz cümləsi ilə süjetin inkişafına real töhfə versin.*

Bu tapşırıq tələbələr üçün sadə yazı işi deyildi. Onlar hər dəfə:

* *əvvəl yazılanları diqqətlə oxumalı,*
* *situasiyanı dərk etməli,*
* *hansı istiqamətdə davam etdirməyin daha məntiqli olduğunu qərarlaşdırmalı,*
* *sonra isə qısa, amma uyğun bir cümlə yazmalı idilər.*

Bu proses "Padlet" üzərində real vaxtda baş verdiyi üçün tələbələr dərhal görürdülər ki, onların verdiyi qərar hekayəni necə dəyişir. Əgər kimsə uyğunsuz və ya zəif məntiqə malik cümlə yazırdısa, bu, dərhal bütün qrupa görünürdü və müzakirə yaranırdı. Beləliklə, əks əlaqə avtomatik və təbii şəkildə formalaşırdı.

Bu mərhələdə mənim əsas rolum müşahidə etmək və lazım gəldikdə müdaxilə etmək idi. Mən tələbələrin cümlələrini sadəcə "düzgün və ya səhv" kimi qiymətləndirmirdim, onlardan nəyə görə belə yazdıqlarını əsaslandırmalarını tələb edirdim. Bu isə oyunlaşdırmanı sadə yaradıcılıq fəaliyyətindən çıxarıb düşünmə və qərarvermə məşqinə çevirirdi.

Bu mərhələ dərsdə gözlə görülən bir dəyişiklik yaratdı. Bu dəyişiklik ondan ibarət idi ki, tələbələr gülürdülər, bir-birinin yazdıqlarını oxuyurdular, növbəti cümləni səbirsizliklə gözləyirdilər və hekayənin necə davam edəcəyini maraqla izləyirdilər. Amma bu əyləncənin arxasında ciddi bir pedaqoji proses gedirdi: onlar kontekstə uyğun qərar verməyi, mətn içində məna qurmağı və kollektiv məntiqi qorumağı öyrənirdilər. Beləliklə, "Padlet" üzərində qurulan bu fəaliyyət həm motivasiya yaradırdı, həm də oyunlaşdırmanın əsas məqsədinə - aktiv və mənalı öyrənməyə xidmət edirdi.



"Padlet" üzərində qurulan hekayə əsaslı oyunlaşdırma mərhələsindən sonra dərsdə ikinci bir oyunlaşdırma xətti açılırdı. Bu mərhələdə tələbələri "Kahoot", "Quizizz" və "Wordwall" platformaları üzərindən daha strukturlaşdırılmış fəaliyyətlərə cəlb edirdim. Məqsədim onların sadəcə oyun oynaması yox, bu alətləri müəllim kimi dərs dizayn etmək üçün istifadə etməsi idi.

Tələbələri kiçik qruplara bölürdüm və hər qrupdan konkret mövzu üzrə oyunlaşdırılmış tapşırıq hazırlamalarını tələb edirdim. Məsələn, bir qrup ingilis dili qrammatikası üçün "Kahoot" viktorinası yaradırdı, digər qrup oxuyub-anlama mövzusu üzrə "Quizizz" testləri hazırlayırdı, üçüncü qrup isə "Wordwall" üzərindən uyğunlaşdırma və boşluq doldurma tapşırıqları dizayn edirdi.

Bu prosesdə tələbələr yalnız sual yazmırdılar. Mən onlardan hər bir tapşırığın arxasında duran pedaqoji məntiqi izah etmələrini tələb edirdim: hansı anlayış ölçülür, tələbə harada səhv edə bilər və oyun bitəndən sonra müəllim bu nəticələri necə şərh etməlidir. Hazırlanmış oyunlar dərs zamanı qruplar arasında oynanılırdı. Bu, dərhal göstərirdi ki, hansı dizayn tələbələri daha çox düşünməyə vadar edir, hansılar isə sadəcə sürət yarışına çevrilir. Nəticələr üzərindən aparılan müzakirə oyunlaşdırmanın texniki yox, pedaqoji tərəfini ön plana çıxarırdı. Beləliklə, "Kahoot", "Quizizz" və "Wordwall" dərsdə sadəcə rəqəmsal alətlər yox, gələcək müəllimlərin dərs dizaynı bacarığını sınaqdan keçirdiyi laboratoriyaya çevrilirdi.

Dərs prosesi irəlilədikcə görürdüm ki, tələbələr - gələcəyin müəllimləri üçün əsas çətinlik aləti işlətmək yox, onu tədris məqsədi ilə əsaslandırmaqdır. Burada bir neçə çətinliyi müəyyən etmişdim.

Birinci çətinlik ondan ibarət idi ki, alət var idi, amma pedaqoji məqsəd yox idi. Tələbələrdən "Quizizz" və ya "Blooket" üzərində oyunlaşdırılmış tapşırıq hazırlamağı tələb etdikdə, çoxu test və oyun yaradırdı. Ancaq onlardan mən soruşanda "bu fəaliyyət hansı düşünmə bacarığını ölçür?", "niyə bu suallar seçilib?", "nəticələr dərsin gedişinə necə təsir edəcək?" - çoxu cavab verə bilmirdi. Dərsdə bu, belə görünürdü: oyun bitir, xallar çıxır, amma öyrənmə üzərində dayanılmırdı. Bu nöqtədə aydın oldu ki, oyunlaşdırma tələbələr üçün təlim strategiyası yox, texniki funksiya kimi başa düşülür.

İkinci çətinlik ondan ibarət idi ki, sürət düşünməni sıxışdırırdı. Xüsusilə "Blooket" və "GimKit" istifadə ediləndə tələbələr sualı tam oxumadan cavablayır, düzgün cavabdan çox xal toplamağa fokuslanır, səhvlərini analiz etmək istəmirdilər. Mən bunu dərhal görürdüm, çünki oyundan sonra verdiyim "niyə belə cavab verdin?" sualına izahlı cavablar gəlmirdi.

Onu qeyd edim ki, mən bu çətinlikləri üç yolla aşkar etdim. Birinci, tələbələrin hazırladığı tapşırıqlarda pedaqoji məntiqin olmaması, daha sonra oyunlardan sonra refleksiya və müzakirənin səthi qalması, sonda isə qərarların əsaslandırılmaması mənə çətinlikləri aşkar etməyə kömək etdi.

Beləliklə, görürdüm ki, tələbələr oyun qurur, amma dərs dizayn etmir. Bu nöqtədən sonra dərslərdə yanaşmanı dəyişdim. *Birincisi*, hər oyunlaşdırılmış fəaliyyətdən əvvəl tələb edirdim ki, tələbələr yazılı şəkildə cavab versinlər: bu fəaliyyət nəyi öyrədir, hansı düşünmə bacarığını inkişaf etdirir. *İkincisi*, oyundan sonra mütləq refleksiya mərhələsi qoydum. Xalları yox, bunları müzakirə edirdik: hansı suallar çətin oldu, bu, nəyi göstərir, dərsi necə yenidən qurmaq olar. *Üçüncüsü*, oyunlaşdırmanı tək fəaliyyət kimi yox, mərhələli tapşırıq zəncirinə bağladım: əvvəl problem, sonra oyun, sonra analiz, sonra qərar.

Son olaraq onu deyə bilərəm ki, oyunlaşdırma təhsildə təkcə əyləncə vasitəsi deyil, məqsədyönlü dərs dizaynıdır. Oyun elementləri - hekayə, çətinliklər, mərhələləşmə və dərhal rəy bildirmə - müəllimə dərsi innovativ şəkildə struktura salmağa imkan verir. Tədqiqatlar göstərir ki, düzgün tətbiq olunan oyunlaşdırma şagirdlərin dərsə marağını, fəallığını və öyrənmə nəticələrini yaxşılaşdırır. Məsələn, xal sistemləri, lider lövhələri və rəqəmsal nişanlardan istifadə şagirdlərdə nailiyyət hissi oyadır və onları davamlı öyrənməyə həvəsləndirir. Bundan əlavə, "Padlet", "Kahoot", "Quizizz" və "Wordwall" kimi alətlər mövzuların başa düşülməsini asanlaşdırır və şagirdlər arasında rəqabət və əməkdaşlığı gücləndirir. Nəticədə, oyunlaşdırma yalnız dərsi rəngarəngləşdirmir; o, müasir təhsildə öyrənməni məqsədyönlü, dinamik və effektli edən güclü vasitə kimi qəbul edilməlidir.

# Uğur hekayəsi



Gənc “Maarifçi” Məsumə Əliyeva tələbə-məzun təcrübə proqramını uğurla tamamlayan 24 nəfərdən biri oldu

## “Təhsil mənim üçün yalnız akademik nəticə deyil”

O öyrənmək, öyrəndiklərini tətbiq etmək, başqalarına da öyrətmək həvəsi ilə yaşayanlardandır. Onu da “Maarifçi” tələbə-məzun təcrübə proqramına məhz bu həvəs gətirib çıxarıb.

“Azərbaycan müəllimi”nin oxucusu Məsuməni “Maarifçi” tələbə-məzun təcrübə proqramının iştirakçısı kimi tanıyıb. Amma artıq o, iş başındadır. Bu proqramda 4 ay ərzində fərqlənib və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin struktur bölmələrindən birində - Uşaq və gənclərin inkişafı sektorunun tabeliyində olan Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində işə başlayıb.

**Müasir çağırışlara cavab verməyə çalışır**

Məsumə Naxçıvan şəhərindəki Ə.Ağayev adına 8 nömrəli tam orta məktəbin məzunudur. 2021-ci ildə Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi olub. Pedaqoji fakültənin “İbtidai sinif müəllimliyi” ixtisası üzrə təhsilini 2025-ci ildə fərqlənmə diplomu ilə bitirib. Hazırda magistrdir. Naxçıvan Dövlət Universitetində “Təhsildə monitorinq və qiymətləndirmə” ixtisası üzrə təhsilini davam etdirir. Öz üzərində işləməyi sevir, bacarıqlarını artırmağa, özünü inkişaf etdirməyə çalışır. Odur ki, tələbəlik vaxtından müasir dövrün çağırışlarına cavab verəcək şəkildə bacarıqlarını artırmağa səy göstərir. Məsələn, 2023-cü ildə Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində “Kompüter operatoru” ixtisasını uğurla bitirib. Kompüter bacarıqlarını artırmaqla yanaşı, məqalələr üzərində də işləyib. 2024-cü ildə “Naxçıvan xəbərləri”ndə “Müasir ailə portreti: Rəqəmsal əsr və sosial dəyişikliklər” adlı məqaləsi yayınlanıb. Magistr tələbəsi olaraq da bu təşəbbüsünü davam etdirib. 2025-ci ildə “Global Spectrum of Research and Humanities” jurnalında “Rəqəmsal analitika vasitəsilə təhsil keyfiyyətinin monitorinqi: Azərbaycan təhsil sistemində innovativ yanaşma” adlı məqaləsini çap etdirib.

**““Maarifçi”yə seçilməyimin əsas səbəbi məqsəd və dəyər uyğunluğudur”**

Müasir dövrlə ayaqlaşmağa çalışdığı üçün “Maarifçi” tələbə-məzun təcrübə proqramına da qatılıb. Məqsədi öyrənmək, təcrübə qazanmaq, daha çox iş barədə məlumatlı olmaq idi: “Maarifçi”yə müraciət edərkən əsas motivasiyam seçilməkdən çox, təsir yaratmaq idi. Çünki bu proqram fərdi uğurları deyil, cəmiyyət üçün dəyər yaradan insanları ön plana çıxarır. Mənim indiyə qədərki fəaliyyətlərimdə də əsas xətt bu olub - öyrənmək, tətbiq etmək və öyrəndiklərimi başqalarının inkişafına yönəltmək. Düşünürəm ki, “Maarifçi”yə seçilməyimin əsas səbəbi məqsəd və dəyər uyğunluğudur. Mən məsuliyyət daşıyan, təşəbbüs göstərən və böyük dəyişikliklərin kiçik addımlarla başladığına inanan biriyəm. Təhsil mənim üçün yalnız akademik nəticə deyil, sosial təsir vasitəsidir. Bu yanaşma “Maarifçi”nin fəlsəfəsi ilə üst-üstə düşür”.

**“Maarifçi” mühitində onu fərqləndirən problemlərə yanaşmasıdır**

“Maarifçi” proqramı çərçivəsində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin İnsan resursları və sənədlərlə iş şöbəsində təcrübə keçib: “İnsan resursları və sənədlərlə iş şöbəsinin hər iki sektorunda təcrübə keçdim. Burada sənəd dövriyyəsi, işin təşkili, vətəndaş müraciətlərinə baxılması kimi proseslərdə iştirak etdim”.

Məsumə problemlərə öz yanaşması ilə “Maarifçi”də təcrübə zamanı da fərqlənib: “Uğurumu təsadüf kimi deyil, davamlı inkişafımın nəticəsi kimi görürəm. Daim öz üzərimdə işləmək, tənqidi düşünmək və öyrəndiklərimi real problemlərin həllinə yönəltmək əsas prinsiplərimdir. “Maarifçi” mühitində də məni fərqləndirən məhz bu yanaşmadır”.

**“Maarifçi” ona nə verdi?**

“Maarifçi” proqramının nəticəsi onun üçün peşəkar və şəxsi inkişafla yanaşı, həm də karyera imkanı olub: “Təcrübə proqramının mənim üçün uğurlu yekunlaşmasının səbəblərindən biri də mentorlarım və rəhbərlərimin əməyi və dəstəyi sayəsindədir. Onların təcrübəsi, düzgün yönləndirməsi və motivasiyası fəaliyyətimi daha sistemli və effektiv qurmağıma imkan verdi. Mentorlarım yalnız texniki bilik və bacarıqlarımı inkişaf etdirmədi, eyni zamanda maarifçilik missiyasına yanaşma tərzimi də formalaşdırdılar. Rəhbərlərin göstərdiyi etimad və dəstək isə mənə öz potensialımı tam reallaşdırmaq və layihəyə dəyər qatmaq üçün əlavə güc verdi. Onların təcrübəsi və rəhbərliyi sayəsində layihənin hər mərhələsində daha məqsədyönlü və nəticəyönümlü fəaliyyət göstərə bildim”.

**Artıq 48 “Maarifçi” iş başındadır**

Naxçıvanda işə başlayan Məsumə kimi III “Maarifçi” tələbə-məzun təcrübə proqramını uğurla başa vuran 24 uğurlu gənc var. Onlar Elm və Təhsil Nazirliyi və tabe qurumları, regional təhsil idarələri, həmçinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin müxtəlif struktur bölmələrində köməkçi vəzifələr üzrə əmək fəaliyyətinə başlayıblar.

Məlumat üçün qeyd edək ki, proqram Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə həyata keçirilir. Məqsəd elm və təhsil sahəsində insan resurslarının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək göstərmək olan proqramının ümumilikdə 101 məzunu var. Onların 48 nəfəri köməkçi vəzifələr üzrə fəaliyyətlərini davam etdirir.

**Ruhiyyə DAŞSALAHLI**

# "Rəqəmsal məktəb"də dərslik layihələrinə rəy bildirmək imkanı yaradılıb




Bildiyiniz kimi, Elm və Təhsil Nazirliyi tərəfindən 2026-2027-ci tədris ili üçün ümumi təhsil müəssisələrinin müvafiq sinifləri üzrə təkmilləşdirilməsi və ya hazırlanması planlaşdırılan dərslik layihələri, eləcə də onlarla komplekt təşkil edən metodik vəsaitlərə dair ictimai rəyin öyrənilməsinə başlalınıb.

İctimai iştirakçılığın genişləndirilməsi, daha çox müəllim və təhsil ictimaiyyətinin dərslik komplektlərinin layihələri ilə tanış olmasını, həmçinin rəy və təkliflərin vaxtında təqdim edilməsini təmin etmək məqsədilə bu ildən etibarən müvafiq elanlar “Rəqəmsal məktəb” platforması üzərindən Bakı şəhəri üzrə bütün müəllim və direktorlarla paylaşılıb.

Elm və Təhsil Nazirliyi bir daha elm adamlarını, təhsil işçilərini, valideynləri, aidiyyəti dövlət qurumlarını, ictimai birlikləri və digər maraqlı tərəfləri müzakirədə olan dərslik layihələri ilə bağlı rəy və təkliflərini bildirməyə dəvət edir.

Xatırladaq ki, dərslik komplektlərinin layihələri *www.trims.edu.az* saytının “İctimai müzakirədə olanlar” bölməsində mərhələli şəkildə yerləşdirilir. Maraqlı tərəflər həmin bölmə vasitəsilə müzakirəyə çıxarılmış layihələrin məzmunu ilə tanış ola, platformada xüsusi bölmədə rəy və təkliflərini bildirə bilərlər. Eyni zamanda, rəy və təkliflərin *derslik@edu.gov.az* elektron poçt ünvanına göndərilməsi də mümkündür.

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003
**Tiraj:** 280 **Sifariş:** 86
**Məsul növbətçi:** S.Kərimova

# Rəqəmsal savadlılığını artır, təhlükəsizliyini təmin et!

## Ümumi təhsil müəssisələrində təlimlərə start verilib



Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən ümumi təhsil müəssisələrində “İnternet təhlükəsizliyi və rəqəmsal savadlılıq” mövzusunda təlimlərə başlanılıb.

Təlimlərin əsas məqsədi təhsil sistemində keyfiyyətin yüksəldilməsi, müasir rəqəmsal yanaşmaların tətbiqi, şagirdlərin internet mühitində təhlükəsiz davranış vərdişlərinin formalaşdırılması, kibertəhlükələrdən qorunma və şəxsi məlumatların mühafizəsi sahəsində biliklərinin artırılmasıdır. Eyni zamanda, müəllimlər və təhsil işçilərinin rəqəmsal texnologiyalardan səmərəli istifadə bacarıqlarının inkişaf etdirilməsi də layihənin əsas hədəflərindəndir.

Təsdiq olunmuş qrafikə əsasən, təlimlərin cari il ərzində şəhər və rayonlar üzrə ümumilikdə 20 ümumi təhsil müəssisəsində keçirilməsi nəzərdə tutulur.

Layihəyə ilkin mərhələdə Naxçıvan Qızlar Liseyində start verilib. Təlim proqramı çərçivəsində nazirliyin əməkdaşı Kənan Hüseynəliyev tərəfindən müəllimlər üçün rəqəmsal savadlılıq, şagirdlər üçün isə internet təhlükəsizliyi mövzularında təlimlər keçirilib. Təlimlərdə rəqəmsal alətlərin tədris prosesində tətbiqi və internet üzərindən informasiyasının düzgün əldə edilməsi, ötürülməsi, şəxsi məlumatların qorunması, eləcə də onlayn etik davranış qaydaları barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, təlimlər növbəti mərhələlərdə də davam etdiriləcək və əldə olunan biliklərin təhsil müəssisələrində praktik şəkildə tətbiqi təmin olunacaq. Bu təşəbbüs ümumtəhsil sistemində rəqəmsal savadlılığın artırılmasına və uşaqların internet mühitində təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

**Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mətbuat xidməti**

# Etibarsız sayılır

**ADA Universiteti** tərəfindən 2023-cü ildə Diego Alejandro Barcenas Ornelasa verilmiş C-169746 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər Cəyir kənd tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Həsənova (Məmmədova) Məhəbbət Vaqif qızına verilmiş A-349591 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 164 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Muxtarov Hüseyin Elnur oğluna verilmiş E-004687 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 113 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Məmmədov Müşviq Zəkrulla oğluna verilmiş A-243267 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1987-ci ildə bitirmiş Abbaszadə Qalib Xalıq oğluna verilmiş A-380379 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli məktəbi-liseyi 2005-ci ildə bitirmiş Paşayev Ülvi Əbdülkərim oğluna verilmiş B-212725 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 103 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Heybətəliyev Elvin İbrahim oğluna verilmiş A-363260 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər məktəb-lisey kompleksi** 2018-ci ildə bitirmiş Həsənzadə Həsən Hətəm oğluna verilmiş E-146859 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Məhərrəmov Səid Vaqif oğluna verilmiş E-052813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Sarıqamış kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Cümşüdov Osman Mustafa oğluna verilmiş A-688265 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş İsmayılov Tural Fəxrəddin oğluna verilmiş A-194758 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Şahmarlı Şahin Fəxrəddin oğluna verilmiş E-744130 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş İsmayılova Günay Vidadi qızına verilmiş A-136239 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 75 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1985-ci ildə bitirmiş Bədəlova Sevinc Rəhim qızına verilmiş A3-II-776179 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 1987-ci ildə bitirmiş 328276 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Əliyeva Aytən Alim qızına verilmiş E-124816 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Əliyev Roman Alim oğluna verilmiş E-248974 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Dünyamalılar kənd 1 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Məmmədova (Mürsəlzadə) Çilənay Elnur qızına verilmiş E-105161 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitet** tərəfindən 2019-cu ildə İbrahimli Toğrul Əliheydər oğluna verilmiş C-037475 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 115 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İmranova (Ağayeva) Nigar İlqar qızına verilmiş A-029538 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Şükürlü Rüfət Əfqan oğluna verilmiş E-508954 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qida Sənayesi Kolleci** tərəfindən 2013-cü ildə Hüseyinova Telli Asif qızına verilmiş AA-034363 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 264 nömrəli məktəb-liseyi 2016-cı ildə bitirmiş Vəlizadə Amin Rabil oğluna verilmiş A-508049 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Eçara kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Ağayeva (Əliyeva) Məleykə Habil qızına verilmiş 413948 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** Avropa Liseyini 2020-ci ildə bitirmiş Əzimli Emil Habil oğluna verilmiş E-312796 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Zəhmətabad kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Rzayev Rauf İnşalla oğluna verilmiş 103053 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 4 nömrəli ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş İbrahimova Rüxsarə Qələndər qızına verilmiş 053777 nömrəli ümumi orta təhsil haqqında attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Kələxana kənd tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Dəmirli Azər Əliheydər oğluna verilmiş B-557070 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Regional Kolleci** tərəfindən 2018-ci ildə Əliyeva Fəridə Habil qızına verilmiş AA-110410 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2021-ci ildə Məmmədzadə Aydan Qüdrət qızına verilmiş AT-007631 nömrəli əsas (Baza Ali) tibb təhsili diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Məmmədli kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Hacıyev Adil Əliş oğluna verilmiş 194661 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2011-ci ildə Hacıyeva Xuraman Vaqif qızına verilmiş AA-002469 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 23 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Məmmədov Xəyal Rafael oğluna verilmiş E-122545 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Ağalıq kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Əsədova Sevinc Qəribağa qızına verilmiş B-253121 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 3 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1976-cı ildə bitirmiş Həsənov Şaban Həsən oğluna verilmiş 471668 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Muğanlı kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Mirzəzadə Rəsul Elxan oğluna verilmiş A-158851 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Xəzər rayonu 123 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Məmmədov Eynulla Suriddin oğluna verilmiş 0015 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Qaraarx qəsəbə ümumi orta ümumtəhsil məktəbin VIII sinfini 1995-ci ildə bitirmiş İbrahimova Gülnaz Əhməd qızına verilmiş AO-037881 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Mehdiabad qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Suleımanova Aıla Ruslan qızına verilmiş F-092060 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Təzəkənd kənd tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Ramazanova Bilnurə İbadət qızına verilmiş A-029238 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1995-ci ildə Kadyrova Aida Pashayvnaya verilmiş УВ-I-108717 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 2 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əsədov Kamal Əli oğluna verilmiş B-704492 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Tibb Kolleci** tərəfindən 2002-ci ildə Rəsulova Aytən Ələmdar qızına verilmiş AB-II-089716 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 256 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Teymurzadə Nemət İsmayıl oğluna verilmiş E-459448 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 148 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Mahmudzadə İlkin Budaq oğluna verilmiş E-812658 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 148 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Əhmədova Fatimə Mahmud qızına verilmiş E-812657 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Əliyev Hüseyn Şahin oğluna verilmiş E-662101 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.